

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 noyabr 2025-ci il, çərşənbə № 215 (7042) Qiymətı 60 qəpik


# Azərbaycanın qlobal missiyası - Avrasiya sabitliyinin siyasi tənzimləyicisi

## Bakı "heartland" rolunda - iki qitə arasında təbii körpü...



Bax səh. 2

## 42 illik faydalı əməkdaşlıq

Bax səh. 3

## Deputatlar 14 qanun layihəsini müzakirə ediblər



Bax səh. 3

## Beyin mərkəzlərinin əməkdaşlığı güclənir

Bax səh. 4

## 87 idi, 27-si qaldı...



Bax səh. 6

## Azərbaycan regional əməkdaşlığın mərkəzinə çevrilir

Bax səh. 4

## Regionda ilk Mərkəz

Beynəlxalq statuslu Akselerasiya zonası Azərbaycanın innovasiya lideri kimi mövqeyini gücləndirəcək

Bax səh. 5

## İqtisadi münasibətlərdə yeni dövr

Bax səh. 5

## İrəvan-KTMT ziddiyyətləri daha da kəskinləşir

Bax səh. 7

## Materiyanın çürük zənciri

Bax səh. 7

## Cenevrədən Əbu - Dabiyə...

Sülh planı dəyişəcəkmi?



Bax səh. 6

# Bakı "heartland" rolunda - iki qitə arasında təbii körpü...



# Azərbaycanın qlobal missiyası - Avrasiya sabitliyinin siyasi tənzimləyicisi

Son 15 illik zaman kəsiyində Azərbaycan qlobal məkanda həm aparıcı regional lider, həm də qlobal logistik öncül kimi yeni bir status qazanıb. Bu dəyişimin məntiqi kökləri təkcə coğrafi mövqedə deyil, həm də Bakının həyata keçirdiyi uzunmüddətli, davamlı, çevik və real vəziyyətə adaptasiya olunan ictimai-siyasi strategiya ilə bağlıdır. Bu gün Azərbaycan haqqında danışanda artıq sadəcə Cənubi Qafqazın lideri kimi deyil, Avrasiyada formalaşan yeni iqtisadi-siyasi düzənin aparıcı mərkəzi kimi danışılır. Zaman-zaman dünya siyasətinin əsas tənzimləyici güc mərkəzləri dəyişib; lakin heç vaxt qitələrarası nəqliyyat, enerji və sivilizasiyalararası əlaqələr bu qədər paralel şəkildə eyni coğrafiyada cəmləşməyib. Azərbaycanın yüksəliş fenomeni də məhz bu məqamda daha aydın şəkildə görünür: ölkə həm coğrafi məntiqi, həm siyasi doktrinası, həm də müasir regional sistemin ehtiyaclarını dəqiq dəyərləndirməsi sayəsində özünü Avrasiyanın təbii "mərkəzi oxu", başqa sözlə desək, "heartlandı" kimi təqdim edə bilib.

Bakı siyasət, enerji, kommunikasiya, təhlükəsizlik və diplomatiya, eləcə də ekostabillik spektrində bütövlükdə Avrasiya miqyaslı əməkdaşlıq xəritəsinin formalaşmasının mərkəzində yer alır. Asiyanın Şərq qapılarından başlayan logistika dayaqları Cənubi Qafqaz üzərindən keçərək Avropaya - mədəni, siyasi və iqtisadi cəhətdən tamamilə fərqli bir sistemə bağlanır. Bu nəhəng xəttin mərkəzində isə Azərbaycan dayanır. Rəsmi Bakı zamanın tələblərini və qlobal çağırışları düzgün analiz edə bilir, dəyişən prioritetləri, dünya gücləri arasındakı geosiyasi rəqabəti və yeni yaranan tranzit marşrutlarının strateji mahiyyətini dəqiq qiymətləndirir. Bu bacarıq Azərbaycanı sadəcə tranzit seqmentinin üzvü etmir - paralel olaraq Azərbaycan bu sistemin ideya müəllifinə, dinamik transformasiya proseslərinin tənzimləyicisinə çevrilir.

## 4 cəhət arasındakı ən mühüm strateji qovşaq

Asiya ilə Avropa arasında təbii körpü rolunu oynayan Bakı həm Mərkəzi Asiya ilə Qərb arasında dialoqun memarı, həm türk dünyasının inteqrasiya dayağı, həm də Şərq-Qərb nəqliyyatının yeni siyasi nəticələr doğuran ən sabit marşrutu kimi qəbul edilir. Azərbaycan Cənubi Qafqazda yeni siyasi reallıq yaradaraq təkcə öz milli maraqlarını təmin etmədi; paralel olaraq bölgədə yeni inteqrasiya modeli qurdu, regionu xarici güclərin təsir alətləri olmaqdan çıxarıb real əməkdaşlıq mərkəzinə çevirdi.

Bakı artıq bir qolu Asiya, digər qolu Mərkəzi Asiya, qəlbi Cənubi Qafqaz, irəliləyiş istiqaməti Kiçik Asiya, final ünvanı isə Avropa olan nəhəng geostrateji formulun başlıca aktorudur. Bu formul Azərbaycanın rolunu iştirakçıdan daha yüksək mərhələyə - tənzimləyici, müəyyənləşdirici və sabitləşdirici güc statusuna yüksəldir. Məhz buna görə də Bakı yeni geosiyasi reallıqlarda Avrasiyanın "heartland"ı funksiyasını icra edir. "Heartland" anlayışının müasir siyasi mahiyyəti daha fərqlidir - qitələrin mərkəzində yerləşməsi, əsas kommunikasiya və enerji arteriyalarına nəzarət yerləşdiyimiz regiona təbii olaraq bu statusu qazandırıb. Bu gün həmin təsviri görmək üçün xəritəyə baxmaq kifayətdir - Bakı artıq həm Şimalla Cənubu, həm Şərqlə Qərbi, həm də enerji ilə logistik marşrutları birləşdirən ən mühüm strateji qovşaqdır.

## Qlobal siyasətin regional sabitləşdirici faktoru

Azərbaycan bu gün Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və regional inkişafın aparıcı lokomotividir. Ermənistanın illər boyunca sərgilədiyi siyasi destruktivlik regionu təhlükəsizlik indeksinə görə geriyə salmış, hətta Cənubi Qafqazı XXI əsrin ilk 20 ilində ən ziddiyyətli siyasi zonalarından birinə çevirmişdi. Nəzərə alınmalıdır ki, vaxtilə həm də bir çox güc mərkəzləri bu destruktizm üzərindən siyasi manipulyasiyalar edirdilər.

Lakin Azərbaycan öz gücü, diplomatik çevikliyi və həm də beynəlxalq hüquqa söykənən legitim mövqeyi sayəsində bu streotipi dağıda bildi. Otuz il davam edən işğalın aradan qalxması ilə bölgədə yaranan yeni reallıq təkcə siyasi balansı dəyişmədi - Azərbaycan hər zamankı kimi ədalətə və humanizmə üstünlük verdi, hətta uzun illərdir qlobal xəritədən itən Ermənistanı yenidən regional inkişaf proseslərinə qaytardı.

Bölgədə yaranan yeni sabitlik modeli Azərbaycanın hərbi-siyasi qələbəsinin nəticəsi olmaqla yanaşı, həm də davamlı iqtisadi əməkdaşlıq fəlsəfəsinə əsaslanan genişmiqyaslı regional inkişaf konsepsiyasına söykənir. Azərbaycanın təşəbbüskarı olduğu nəqliyyat və enerji layihələri regionu qlobal siyasi xəritədə vacib tranzit mərkəzinə çevirir. xüsusilə Zəngəzur dəhlizi (TRIPP) perspektivi Şərqlə Qərbi birləşdirəcək ən təhlükəsiz, ən qısa və ən funksional xətt kimi dəyərləndirilir. Bu dəhliz təkcə fiziki nəqliyyat koridoru deyil; bu, qlobal güclərin maraqlarını kəsişdirən, sabitliyə və davamlı əməkdaşlığa əsaslanan yeni geostrateji sistemin əsas sütunlarından biridir. Rəsmi Bakı bu sistemi formalaşdırmaqla regionda müharibə risklərini minimuma endirdi və Cənubi Qafqazı qlobal iqtisadiyyatın ayrılmaz bir hissəsinə çevirdi.

Zəngəzur dəhlizi (TRIPP) həm də siyasi inteqrasiyanın simvoludur. Azərbaycan bu dəhliz vasitəsilə təkcə ticarət və logistikanı inkişaf etdirmir, həm də regional böhranların qarşısını almaq üçün yeni təhlükəsizlik mexanizmləri yaradır. İqtisadi mütəxəssislərin rəyinə görə, dəhliz açıldıqdan sonra Mərkəzi Asiya ilə Avropa arasında yük dövriyyəsinin ən azı iki dəfə artacağı proqnozlaşdırılır. Bu, Avrasiyada yeni iqtisadi xəritənin formalaşması deməkdir və bu xəritənin mərkəzində Azərbaycan durur. Məhz bu səbəbdən Azərbaycan qlobal siyasətdə sabitləşdirici faktor kimi dəyərləndirilir:

- regional münaqişələri aradan qaldırıb;
- əməkdaşlıq platformaları yaradıb;
- yeni təsərrüfat-coğrafi xəritə formalaşdırıb;
- regionun inkişaf trayektoriyasını müəyyən edib.

Bütün bunlar Bakını Avrasiyanın strateji nüvəsinə çevirən əsas amillərdən biridir.

**Azərbaycan artıq təkcə regional lider deyil, qitələrarası stabillik sisteminin strateji mərkəzidir. Bu sabitlik missiyası ilk növbədə Cənubi Qafqazı yeni siyasi reallığa gətirib çıxarıb. Bakı Avrasiyanın yeni siyasi arxitekturasını formalaşdıran, riskləri sabitliyə çevirən və qitələrarası balansı qoruyan əsas mərkəz kimi qəbul edilir. Bu reallıq yalnız hazırkı dövr üçün deyil, qarşıdakı onilliklər üçün də Azərbaycanın siyasi çəkisini və qlobal mövqeyini müəyyən edəcək əsas faktordur**

## Qitələrarası stabillik arxitekturasındakı siyasi rol

XXI əsrin yeni mərhələsində dünya siyasətində qütblərarası rəqabətin kəskinləşməsi və enerji-logistika marşrutları uğrunda mübarizənin artması fonunda Azərbaycanın sabitləşdirici potensialı daha aydın görünməyə başlayıb. Bakı artıq yalnız region üçün deyil, həm də geniş Avrasiya məkanında siyasi dialoqun qorunması, təhlükəsizlik risklərinin idarə olunması və əməkdaşlıq mexanizmlərinin qurulması baxımından mühüm mərkəz" funksiyasını icra edir.

Azərbaycanın bu statusu təsadüfi deyil. Ölkənin xarici siyasət xətti hər zaman milli maraqlar prinsipinə, mehriban qonşuluq fəlsəfəsinə və qarşılıqlı fayda modelinə əsaslanıb. Bu siyasət regionu uzun müddət təhdid altında saxlayan güc qarşıdurmalarını neytrallaşdırmağa imkan verir. Təsadüfi deyil ki, postmünaqişə reallığı formalaşandan dərhal sonra Azərbaycan Ermənistanı sülh gündəliyinə dəvət edən tərəf oldu - Bakı bölgəni ifrat hərbi-siyasi risklərdən azad edərək onu yeni iqtisadi və diplomatik əməkdaşlıq meydanına çevirdi. Bu faktor Cənubi Qafqazın "sabitlik boşluğu" kimi tanındığı bir dövrdə beynəlxalq güclər tərəfindən yüksək qiymətləndirildi. Vurğulandığı kimi, hazırda Azərbaycan Rusiya, Türkiyə, Avropa İttifaqı, ABŞ, Çin və Mərkəzi Asiya ölkələri ilə paralel şəkildə əməkdaşlıq qurmaq bacarığına malik yeganə regional dövlətdir.

Bakı həm də Şərq-Qərb geosiyasi trafikində neytral, lakin təsir gücü olan aktor kimi çıxış edir. Bu, enerji siyasətində xüsusilə özünü göstərir. Azərbaycanın həyata keçirdiyi enerji diplomatiyası Avropa üçün enerji təhlükəsizliyi, Asiya üçün isə yeni bazar, yeni yol imkanları yaradıb. Beləliklə, Bakı həm enerji, həm təhlükəsizlik, həm də tranzit xəttində qitələrarası əlaqələri sabit saxlayan əsas stabilləşdiriciyə çevrilib.

Qitələrarası stabillikdə Azərbaycanın rolunu gücləndirən digər əsas məqam qlobal təşkilatlarla qurduğu bərabərhüquqlu münasibətlərdir. Bakı Qoşulmama Hərəkatına sədrliyi dövründə həm inkişaf etməkdə olan dövlətlərin, həm də beynəlxalq sistemdə söz haqqı az olan ölkələrin maraqlarını müdafiə etməklə özünü universal siyasi dialoq tribunasına çevirdi. Azərbaycanın təşəbbüskarı olduğu beynəlxalq humanitar forumlar, iqlim gündəliyi, enerji təhlükəsizliyi və multikulturalizm siyasəti ölkəni qlobal siyasi sabitliyin mühüm dayaqları sırasında möhkəmləndirdi. COP29-un Bakıda keçirilməsi də Azərbaycanın qlobal sabitlik prosesinə verdiyi töhfənin tanınması idi.

## Avrasiyanın yeni siyasi arxitekturasını formalaşdıran əsas mərkəzlərdən biri

Bu sadalanan faktorlar isə Azərbaycanın son illərdə reallaşdırdığı çoxtərəfli strategiyaların istiqamətlərini göstərir - beləliklə də, ölkə artıq təkcə regional lider deyil, qitələrarası stabillik sisteminin strateji mərkəzidir. Bu sabitlik missiyası ilk növbədə Cənubi Qafqazı yeni siyasi reallığa gətirib çıxarıb. Azərbaycan müharibə sonrası dövrdə yalnız öz ərazi bütövlüyünü bərpa etmədi - paralel olaraq uzun illərdir dondurulmuş və risklərlə yüklənmiş bir regionu iqtisadi inteqrasiya xəritəsinə qaytardı. Bakı regionda hərbi-siyasi qarşıdurmanın qarşısını aldı, qlobal güclərin təsir mübarizəsini balanslaşdırdı və Cənubi Qafqazı beynəlxalq iqtisadi arteriyaların qovşağına çevirdi. Bu, ölkənin geosiyasi əhəmiyyətini artıran əsas məqamlardan biridir. Nəticə etibarilə, Azərbaycan Avrasiyanın fonunda qlobal sabitliyin qurulmasına real təsir göstərən aktordur. Bakı Avrasiyanın yeni siyasi arxitekturasını formalaşdıran, riskləri sabitliyə çevirən və qitələrarası balansı qoruyan əsas mərkəz kimi qəbul edilir. Bu reallıq yalnız hazırkı dövr üçün deyil, qarşıdakı onilliklər üçün də Azərbaycanın siyasi çəkisini və qlobal mövqeyini müəyyən edəcək əsas faktordur.

*Pərviz SADAYOĞLU*

# 42 illik faydalı əməkdaşlıq

## UNESCO-nun Ümumdünya İrs Komitəsinin üzvü seçilməsi Azərbaycanın növbəti diplomatik uğurudur

Azərbaycan növbəti diplomatik uğura imza atıb. Belə ki, bu günlərdə Parisdə Ümumdünya Mədəni və Təbii İrsin Qorunması üzrə 1972-ci il Konvensiyasına Tərəf Ölkələrin Baş Assambleyasının 25-ci sessiyası çərçivəsində UNESCO-nun Ümumdünya İrs Komitəsinin (ÜİK) 2025-2029-cu illər üzrə üzvlüyünə keçirilmiş seçkilərdə Azərbaycan Komitənin üzvü seçilib. Xarici İşlər Nazirliyinin (XİN) yaydığı məlumatda bildirilir ki, 21 üzv ölkədən ibarət olan Komitə UNESCO-nun Ümumdünya İrs Konvensiyasının həyata keçirilməsinə nəzarəti həyata keçirən əsas icra orqanıdır. Ciddi rəqabət şəraitində baş tutmuş seçkilərdə Şərqi Avropa regionu üçün ayrılmış 1 yer uğrunda ölkəmizlə birgə 5 ölkə mübarizə aparıb. Azərbaycan səsvermənin ilk mərhələsində 160 ölkədən 92-nin dəstəyini təmin edərək Komitəyə üzv seçilib.

Xatırladaq ki, Azərbaycan 2015-2019-cu illərdə də Komitənin üzvü olub və onun fəaliyyətinə əhəmiyyətli töhfələr verib. 2019-cu ilin iyul ayında Komitənin 43-cü sessiyasına ölkəmiz ev sahibliyi edib.

## Heydər Əliyev tərəfindən 42 il əvvəl əsası qoyulan Azərbaycan - UNESCO əlaqələri

BMT-nin elm, təhsil və mədəniyyət sahəsində ixtisaslaşmış təşkilatı olan UNESCO-nun nizamnaməsi 16 noyabr 1945-ci ildə Londonda imzalanıb və 4 noyabr 1946-cı ildə 20 üzv dövlətdən ibarət UNESCO fəaliyyətə başlayıb. Hazırda UNESCO-nun 193 üzvü və 11 Assosiativ Üzvü var. UNESCO-nun üç əsas orqanı fəaliyyət göstərir: Baş Konfrans, İcraiyyə Şurası və Katiblik. Azərbaycan - UNESCO əlaqələrinin tarixi 42 il bundan əvvəl başlayıb. Onda Azərbaycan keçmiş ittifaqın 15 müttəfiq respublikasından biri idi və təbii ki, UNESCO-nın sıralarında təmsil olunmurdu. Ancaq həmin dövrdə Azərbaycanın rəhbəri olan uzaqgörən siyasətçi Heydər Əliyev mühafizəkar sovet rejiminin ideoloji buxovlarını aşaraq Azərbaycanın milli mədəniyyətinin inkişafına və onun dünyada tanınmasına böyük səy göstərirdi. Məhz Onun uzaqgörənliyinin, diplomatik məharətinin və əlbəttə ki, vətənpərvərliyinin nəticəsi idi ki, keçmiş sovet dönəmində Azərbaycan mədəniyyətinin dünya səviyyəsində tanınmasına geniş imkanlar yaranmışdı. Belə fəaliyyətlərlə Heydər Əliyev böyük bir missiya yerinə yetirərək xalqın milli özünüdərk hissini gücləndirirdi. Heydər Əliyevin böyük səyləri sayəsində 1983-cü ildə Bakıda UNESCO-nun Şərq Xalça Sənəti üzrə Beynəlxalq Seminarı (Seminaire international sur l'art du tapis d'Orient) baş tutub və uğurla keçən bu tədbir UNESCO ilə Azərbaycan arasında əlaqələrin yaranmasında və ölkəmizin beynəlxalq səviyyədə tanınmasında mühüm rol oynayıb. Bunun canlı şahidləri də var. Azərbaycanın sabiq Baş naziri, sabiq xarici işlər naziri və UNESCO üzrə Milli Komissiyamızın ilk sədri səfir Həsən Həsənov 1983-cü ildə Bakıda keçirilən beynəlxalq seminarın təşkilat komitəsinin üzvü olub. Həsən Həsənov Şərq Xalça Sənəti üzrə ilk Beynəlxalq Seminarın 1983-cü ildə Bakıda keçirilməsinin və UNESCO-nun sabiq Baş direktoru Mbonun həmin seminarda iştirakının ölkəmiz üçün beynəlxalq arenaya qapı açdığını deyib. Bildirilib ki, həmin tədbirdə Heydər Əliyev tərəfindən A.Mboya xalça ustası və alim Lətif Kərimovun əl işi olan "Memar Əcəmi" xalçası hədiyyə olunub. Həmin xalça hazırda UNESCO-nun mənzil-qərargahında saxlanılır.

Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan sonra da ölkəmizlə UNESCO arasında sıx əlaqələr qurulmasına böyük önəm verib. Onun Azərbaycan Prezidenti kimi 21 fevral 1994-cü il tarixində imzaladığı müvafiq Sərəncama əsasən UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılıb.

Böyük siyasətçi Heydər Əliyevin Azərbaycan-UNESCO əlaqələrinə verdiyi töhfələr unudulmur. 2023-cü il aprelin 28-də Azərbaycanın UNESCO yanında daimi nümayəndəliyi tərəfindən qurumun mənzil-qərargahında Azərbaycan-UNESCO tərəfdaşlığının 40 illiyi və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Tədbirdə 1999-2009-cu illərdə UNESCO-nun Baş direktoru vəzifəsində çalışan Koişiro Matsuura (videokonfrans formatında), UNESCO İcraiyyə Şurasının sədri Tamara Rastovak Siamaşvili (videokonfrans), UNESCO-nun Xarici əlaqələr şöbəsinin müdiri Genc Seiti, təşkilatın Asiya şöbəsinin sabiq rəhbəri Vəfa Mustafayev və digər rəsmi şəxslər də qatılıblar. 2009-2017-ci illərdə UNESCO-nun Baş direktoru vəzifəsində çalışmış İrina Bokova iştirakçılara təbrik məktubu ünvanlayıb. Qonaqlar arasında A.Mbonun oğlu Mari Ami Mbo da olub. Bütün bunlar UNESCO səviyyəsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə böyük ehtiramın əyani təsdiqidir.

## Heydər Əliyev Fondunun mədəniyyətlərarası dialoqa xüsusi töhfələri

Azərbaycanla - UNESCO arasında əməkdaşlıq əlaqələrinin genişlənməsində Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun mühüm rol oynadığını ayrıca qeyd etmək lazımdır. K.Matsuura Azərbaycan rəhbərliyinin, xüsusilə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın UNESCO-ya, həmçinin mədəniyyətə göstərdikləri qayğı və diqqəti yüksək qiymətləndirdiyini vurğulayıb. İ.Bokova məktubunda Prezident İlham Əliyevlə birgə iştirak etdiyi Mədəniyyətlərarası Dialoq üzrə Beynəlxalq Forum, Birinci vitse-prezident Mehriban Əliyevanın UNESCO-nun xoşməramlı səfiri olduğu müddətdə qızların



təhsilinə göstərdiyi xüsusi qayğı, Azərbaycan ilə UNESCO arasında imzalanan Çərçivə Sazişi haqqında xatirələrini bölüşüb. Sabiq baş direktor Azərbaycan tərəfindən mədəniyyət və irs, biomüxtəlifliyin qorunması, təhsil, idman, mədəniyyətlərarası dialoq sahələri üzrə həyata keçirilən onlarla layihənin vacibliyindən söz açıb. O, Azərbaycan-UNESCO tərəfdaşlığının təşkilatın mandatının həyata keçirilməsi üçün potensial yaratdığına əmin olduğunu qeyd edib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkə daxilində tarixi mədəniyyət abidələrinin qorunmasını əhatə edən çoxsaylı layihələr reallaşdırır. Fond tərəfindən belə layihələr həmçinin ölkə hüdudlarından kənarda da həyata keçirilir. Məsələn, Fond tərəfindən Bolqarıstanın Veliko-Tırnovo şəhərindəki "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası həyata keçirilib. Qoruğun bərpadan sonra açılışı 23 sentyabr 2016-cı il tarixində Bolqarıstanın Baş nazirinin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə baş tutub.

Heydər Əliyev Fondu tərəfindən Vatikanda reallaşdırılan layihələrin sayı da çoxdur. 2016-cı il fevralın 23-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Vatikanda bərpa edilən Müqəddəs Marçellinio və Pietro katakombalarının açılışı olub. Açılış mərasiminə qatılan Mehriban xanım Əliyeva tədbirdə çıxış edib. Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefinin, Vatikan Bazilikasındakı katakombalarda yerləşən "Tullius Zethus" məqbərəsinin, "Müqəddəs Komodiliya" katakombalarındakı mavzoleyin bərpası da Fond tərəfindən böyük uğurla həyata keçirilib.

Azərbaycan dövlətinin və Heydər Əliyev Fondunun mədəniyyətlərarası dialoqun gücləndirlməsinə verdiyi davamlı töhfələr UNESCO-da yüksək dəyərləndirilir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkəmizin zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə 2004-cü ilin sentyabr ayında UNESCO-nun şifahi və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülüb (2004-2022). Eyni zamanda, Azərbaycanın 3 maddi mədəni irs nümunəsi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Bunlar aşağıdakılardır: "İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi" (2000);"Qobustan Qaya Sənəti Mədəni Landşaftı" (2007) və "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" (2019), Xınalıqların Mədəni Landşaftı və "Köç yolu" Marşrutu (2023), Azərbaycanın Hirkan meşəsi" (2023). Azərbaycanın 19 qeyri-maddi mədəni irs nümunəsi isə UNESCO-nun Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilib.

## UNESCO-nun ən fəal üzvlərindən biri

Müstəqil Azərbaycan 3 iyun 1992-ci il tarixində UNESCO-ya üzv qəbul edilib və qurumun ən fəal üzvlərindən biri kimi fəaliyyət göstərir. Qurumun sabiq və hazırda fəaliyyətdə olan rəsmilərinin də bildirdikləri kimi, Azərbaycan-UNESCO münasibətləri dinamik səciyyə daşıyır, indiyədək ölkəmiz tərəfindən təşkilatın mandatı çərçivəsində saysız-hesabsız layihələr reallaşdırılıb. Ölkəmizin bir sıra təşəbbüsləri, o cümlədən mədəniyyətlərarası dialoq və idman sahələri üzrə hazırladığı müvafiq qətnamə layihələri İcraiyyə Şurasında müzakirələrə çıxarılıb və üzv dövlətlər tərəfindən yekdilliklə qəbul olunub. Diqqətəlayiq haldır ki, Azərbaycanın UNESCO-nun fəaliyyətinin genişlənməsinə verdiyi töhfələri qurumun rəsmiləri də açıq şəkildə etiraf edirlər. Yuxarıda bəhs etdiyimiz tədbirə qatılan UNESCO-nun Xarici əlaqələr şöbəsinin müdiri Genc Seiti 1995-ci ildə UNDP ilə UNESCO-nun təhsil sahəsi üzrə birgə keçirdiyi layihə çərçivəsində Azərbaycana səfər etdiyini, mədəniyyətimizi tanıdığını və ölkəmizlə bağlı xoş xatirələrinin olduğunu bildirib. O, təşkilat ilə ölkəmiz arasında zəngin əməkdaşlığın mövcudluğunu, ölkəmizin ən fəal üzv dövlətlərdən biri olduğunu, təşkilatın qlobal prioritetləri - gender bərabərliyi və Afrika ilə bağlı layihələrə həmişə dəstək verdiyini, mədəniyyətlərarası dialoqu "Bakı Prosesi" və UNESCO-nun Mədəniyyətlərarası elektron platforması layihələri vasitəsilə təşviq etdiyini, UNESCO-nun İpək Yolları Proqramının bərpasında fəal iştirak etdiyini, İdman nazirlərinin 7-ci Konfransına (MINEPS IV) ev sahibi seçildiyini və Qlobal Təhsil Koalisiyasını dəstəklədiyini diqqətə çatdırıb.

İndiyədək Azərbaycan UNESCO-nun əksər konvensiyalarına qoşulub və üzərinə düşən öhdəlikləri məsuliyyətlə yerinə yetirir. Ölkəmiz UNESCO-nun bir sıra alt qurumlarında da uğurla təmsil olunur. Eyni zamanda, respublikamızda ayrı-ayrı sahələr üzrə milli komitələr yaradılıb. Eləcə də Azərbaycanla UNESCO arasında qarşılıqlı fəaliyyətin hüquqi əsaslarını təmin edən sənədlər imzalanıb.

*Mübariz ABDULLAYEV*

## Milli Məclisin iclasında...

# Deputatlar 14 qanun layihəsini müzakirə ediblər



*Nardar BAYRAMLI*

Noyabrın 25-də Milli Məclisin növbəti keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 14 məsələ daxil edilib.

Əvvəlcə Azərbaycanın bir sıra ölkələr ilə diplomatik və xidməti pasport sahiblərini vizadan qarşılıqlı azad edilməsi məsələsinə baxılıb. Belə ki, iclasda "Azərbaycan Respublikası Hökuməti ilə Anqola Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in, "Azərbaycan Respublikası Hökuməti ilə Bəhreyn Krallığı Hökuməti arasında diplomatik pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in, "Azərbaycan Respublikası Hökuməti ilə Cibuti Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in, "Azərbaycan Respublikası Hökuməti ilə Dominikan Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in, "Azərbaycan Respublikası Hökuməti ilə Qvineya-Bisau Respublikası Hökuməti arasında diplomatik, xidməti və xüsusi pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in, "Azərbaycan Respublikası Hökuməti ilə Surinam Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihələri müzakirəyə çıxarılıb.

İclasda, eləcə də "Azərbaycan Respublikası Hökuməti ilə Maldiv Respublikası Hökuməti arasında ümumvətəndaş pasport sahiblərinin viza tələbindən qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsinə də baxılıb. Müzakirələrdən sonra sənədlər qəbul edilib.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında məxfi məlumatın mübadiləsi və qarşılıqlı mühafizəsi haqqında Saziş"in təsdiq edilməsi müzakirə olunub. Layihəni təqdim edən parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev deyib ki, bu saziş ölkəmizin təhlükəsizlik arxitekturasını möhkəmləndirən mühüm sənədlərdən biridir. Saziş 2025-ci il sentyabrın 19-da Bakı şəhərində müvafiq qurumların rəhbərləri tərəfindən imzalanıb. Komitə sədri qeyd edib ki, sənəd iki dövlət arasında informasiya təhlükəsizliyi, kibermühafizə və müdafiə sahəsində əməkdaşlıq üçün daha sistemli və etibarlı əsaslar yaradır: "Transmilli cinayətkarlıq, terrorizm, kiberhücumlar və regiondakı geosiyasi proseslər göstərir ki, dövlətlər arasında informasiya mübadiləsi ancaq etibarlı qaydalar və qarşılıqlı öhdəliklər əsasında aparılmalıdır. Bu Saziş ölkələrimiz arasında ötürülən məlumatların məxfiliyini, bütövlüyünü və mühafizəsinin təmin edilməsini hüquqi cəhətdən rəsmiləşdirir. Sazişin bir mühüm tərəfi ondan ibarətdir ki, hər iki dövlət məxfi məlumatları yalnız səlahiyyətli qurumlar və təhlükəsizlik tələblərinə uyğun prosedurlar çərçivəsində mübadilə edəcək, məlumatların üçüncü tərəflərə verilməsi isə yalnız qarşı tərəfin razılığı ilə mümkün olacaq. Bu, həm etimad mühitini gücləndirir, ikitərəfli əməkdaşlığın uzunmüddətli davamlılığını təmin edir. Azərbaycan üçün bu sazişin əhəmiyyəti ondan ibarətdir ki, Moldova ilə təhlükəsizlik sahəsində əməkdaşlıq genişlənir, cinayətkarlıqla mübarizə, kəşfiyyat və əks kəşfiyyat məlumatlarının mübadiləsi və kibertəhlükəsizlik üzrə koordinasiya daha effektiv hala gəlir. Bu, ölkəmizin beynəlxalq tərəfdaşlıq şəbəkəsinin güclənməsinə və regional təhlükəsizliyin möhkəmlənməsinə mühüm töhfə verir". Müzakirələrdən sonra qanun layihəsi qəbul olunub.

Sonra "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş) təqdim edilib. Bildirilib ki, qanun layihəsi Azərbaycan ərazisində nəqliyyat-ekspedisiya fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının, habelə hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin və fərdi sahibkarların fəaliyyətini, həmçinin onlar arasında yaranan münasibətləri tənzimləyir. Layihədə müvafiq anlayışlar, sahə üzrə dövlət tənzimlənməsi çərçivəsində görüləcək tədbirlər, ekspeditora qarşı pretenziya və iddia verilməsi qaydaları, sahəvi ictimai birliklərin yaradılması ilə bağlı məsələlər əks olunur.

Qanun layihəsinin tərtibi "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrası ilə əlaqədardır. Strategiyanın Tədbirlər Planında tranzit daşıma və logistika işinin səmərəli təşkili üçün nəqliyyat-ekspedisiya fəaliyyətini reqlamentləşdirən normativ hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulur. Eyni zamanda, bu layihə nəqliyyat-logistika göstəricisi üzrə ölkəmizdə biznes mühitinin yaxşılaşdırılmasına xidmət edir. Belə ki, nəqliyyat-ekspedisiya fəaliyyəti iqtisadi indikator kimi sahibkarlıq subyektlərinin geniş dairəsini əhatə edir.

Qeyd olunub ki, bir sıra beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi, ölkəmizdə beynəlxalq standartlara uyğun logistika mərkəzlərinin və nəqliyyat infrastrukturunun yaradılması, bu səbəbdən yüklərin ölkə ərazisindən tranzit olaraq daşınması həcminin artması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan quruculuq işləri nəqliyyat-ekspedisiya fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaradır. Qanun layihəsinin qəbul edilməsi ilə ölkəmizin tranzit imkanlarından daha səmərəli istifadə edilməsi, logistika xidmətlərinin keyfiyyətinin artması, daşıma xərclərinin azaldılması, vaxtın səmərəli idarə olunması təmin ediləcək, yerli ekspeditorların beynəlxalq bazarda rəqabət qabiliyyəti yüksələcək.

Sonra Mülki Məcəllədə, Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verilib və bu sənədin "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" qanun layihəsindən irəli gələrək hazırlandığı diqqətə çatdırılıb.

Deputatlar "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi layihəsini (birinci oxunuş) də qəbul ediblər. Layihəyə əsasən, ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılan və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlərin dinc dövrdə həqiqi hərbi xidmət müddəti 6 ay azaldılacaq. Qüvvədə olan qanuna görə, dinc dövrdə həqiqi hərbi xidmətin müddəti ehtiyatdan həqiqi hərbi xidmətə çağırılanlar və ya könüllü daxil olan zabitlər üçün 1 il 6 ay, bağlaşma üzrə həqiqi hərbi xidmətə könüllü daxil olan zabitlər üçün 3 ilə qədərdir.

Sənədə əsasən isə ehtiyatdan müddətli həqiqi hərbi xidmətə çağırılanlar və ya bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar üçün bu müddət 1 il (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə onlar kadr zabit heyətinə keçirilirlər), bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün bu müddət 3 ilədək (bu müddət bitdikdən sonra tərəflərin razılığı ilə yeni bağlaşma bağlanılır) olacaq.

Qeyd edək ki, deputatlar gündəlikdə olan bütün məsələləri qəbul ediblər. Sonda spiker Sahibə Qafarova parlamentin növbəti iclasının dekabrın 2-də keçiriləcəyini bildirib.

# Beyin mərkəzlərinin əməkdaşlığı güclənir




## Bu, Azərbaycanla Türkiyənin gələcək strateji təşəbbüslərinin koordinasiyası baxımından əhəmiyyət kəsb edir

Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. “Bir millət, iki dövlət” prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir.

### Regionun iki güclü dövləti...

Bu səmimi, qırılmaz əlaqələr iki ölkənin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə sıx əməkdaşlığı ilə yanaşı, ortaq mədəni dəyərlərin qorunması və inkişaf etdirilməsi istiqamətində də özünü göstərir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək, regional və qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda, hər iki dövlət prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə Türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfələr verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Xüsusən də hər iki ölkənin humanitar fəlakətlər zamanı birbirinə dəstəyi, qarşılıqlı yardımı və mənəvi həmrəyliyi bu münasibətlərin nə qədər dərin vəsarsılmaz olduğunu bir daha sübut edir. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib.

Regionun güclü və nüfuzlu dövlətləri olan Azərbaycanla Türkiyə daim müxtəlif səviyyələrdə təmasdadır və iktərəfli, o cümlədən regional proseslərlə bağlı koordinasiyalı şəkildə əməkdaşlıq edirlər. Bu baxımdan, noyabrın 24-də Şuşa şəhərində keçirilən Azərbaycan - Türkiyə Beyin Mərkəzlərinin Birinci Forumunu da qeyd etmək yerinə düşər. Forumda iki ölkənin aparıcı analitik qurumlarının rəhbərləri, ekspertlər və akademik çevrələrin nümayəndələri iştirak ediblər. Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən forumun regional inteqrasiya, strateji əməkdaşlıq və beyin mərkəzləri arasında əlaqələrin dərinləşdirilməsi baxımından əhəmiyyətini vurğulayıb. Eləcə də Azərbaycan - Türkiyə strateji müttəfiqliyinin regionda formalaşan yeni reallıqlar fonunda institusional əsaslarının və konstruktiv rolunun daha da gücləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

### Beyin mərkəzlərinin təmsilçiləri önəmli müzakirələr aparıb

Forum çərçivəsində vacib məsələlərin müzakirə edildiyi üç panel sessiya keçirilib. Belə ki, birinci sessiyada Azərbaycan və Türkiyənin xarici siyasətində əsas trendlər, Qafqaz regionunda dəyişən təhlükəsizlik arxitekturası və iki ölkənin diplomatik koordinasiya imkanları müzakirə edilib. İkinci sessiyada Türk Dövlətləri Təşkilatında inteqrasiyanın perspektivləri, iqtisadi və nəqliyyat əməkdaşlığının genişləndirilməsi, eləcə də vahid analitik yanaşmaların formalaşdırılması məsələləri diqqət mərkəzində olub. Üçüncü sessiyada isə nəqliyyat-kommunikasiya və enerji əməkdaşlığının strateji əhəmiyyəti, Zəngəzur dəhlizi və Orta Dəhlizin inkişafı, həmçinin Azərbaycan və Türkiyənin enerji diplomatiyasında yeni istiqamətlər müzakirə edilib.

Forumda hər iki ölkənin beyin mər-



kəzlərinin ortaq cəhətləri də vurğulanıb. Ekspertlər Azərbaycan və Türkiyənin analitik qurumlarının eyni regional prioritetlərə malik olduğunu, xarici siyasət, təhlükəsizlik, enerji və nəqliyyat məsələlərində oxşar strateji yanaşmalar ortaya qoyduqlarını bildiriblər. Ümumi rəy belədir ki, iki ölkənin beyin mərkəzləri arasında tədqiqat gündəliyi böyük ölçüdə üst-üstə düşür və bu əməkdaşlıq regiondakı proseslərin daha dərindən təhlilinə imkan yaradır. Bu platformanın təşkil edilməsi region üçün mühüm əhəmiyyət daşıyır. Yəni Azərbaycan-Türkiyə intellektual əməkdaşlığı regional sabitlik və təhlükəsizlik baxımından yeni sinerji yaradır, TDT çərçivəsində vahid strateji yanaşmaların formalaşmasına, eləcə də Cənubi Qafqazda sülh və inkişaf modelinin möhkəmlənməsinə töhfə verir. Bütövlükdə, iki ölkənin beyin mərkəzləri arasında elmi-analitik əməkdaşlığın genişləndirilməsi, ortaq tədqiqat layihələrinin həyata keçirilməsi, birgə strateji hesabatların hazırlanması və növbəti forumların mütəmadi keçirilməsi nəzərdə tutulur.

Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi iki ölkə arasındakı siyasi və hərbi münasibətləri daha da möhkəmləndirib. Regional çağırışların artdığı bir dövrdə Azərbaycan-Türkiyə münasibətlərinin hərbi istiqamətdə daha da güclənməsi xüsusi önəm daşıyır. İki ölkə arasındakı əməkdaşlıq təkcə siyasi və iqtisadi sahələrdə deyil, təhlükəsizlik və müdafiə sahəsində də nümunəvi model yaradıb. 2021-ci ilin iyun ayında liderlər tərəfindən imzalanmış müttəfiqlik haqqında Şuşa Bəyannaməsi isə münasibətlərimizin zirvəsini təşkil edir.

### Şuşa Bəyannaməsi münasibətlərimizin zirvəsidir

Qeyd edək ki, ölkələrimiz arasında enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neftkəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri AzərbaycanınAvropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib. Bununla yanaşı, hərbi sahədə də tərəfdaşlığı möhkəm təməl üzərində qurulub. Xüsusilə 2020-ci ildə baş vermis İkinci

Bütövlükdə, Cənubi Qafqazda yaranmış yeni reallıqlar, o cümlədən Yaxın Şərqdə vəziyyət iki qardaş ölkənin diqqət mərkəzindədir. Dövlətlərimiz regionumuzda sülhün və sabitliyin təminolunması üçün birgə diploimatik fəaliyyət həyata keçirir. Bütün bunların fonunda, Birinci Şuşa Forumu Azərbaycan və Türkiyə beyin mərkəzləri arasında institusional tərəfdaşlığın möhkəmlənməsi, ortaq elmi-analitik platformaların yaradılması və gələcək strateji təşəbbüslərin koordinasiyası baxımından əhəmiyyət kəsb edir.

*Nardar BAYRAMLI*

---

**Bakı tərəfdaşliq əlaqələrinin güclənməsinə töhfələr verir**

# Azərbaycan regional əməkdaşlığın mərkəzinə çevrilir

Azərbaycanın Vətən müharibəsində qazandığı qələbə bölgənin təhlükəsizlik meyarını müəyyənləşdirdiyi qədər həm də əməkdaşlıq perspektivini ön plana çıxardı. Belə ki, postmüharibə dövrünün reallıqları arasında münasibətlərin normallaşması, bölgədə iqtisadi sistemin yenilənməsi kimi faktorlar da yer almaqdadır. Bu istiqamətdə davam edən proseslər müsbət trayektoriyalı inkişaf xəttinə malikdir - Azərbaycanın səyi və sülh təşəbbüsləri nəticəsində Cənubi Qafqazın stabil və sabit ünvan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması bütövlükdə region üçün yeni perspektiv deməkdir. Azərbaycanın yürütdüyü siyasətin hədəfi məhz budur - əsas prioritetimiz geniş bir coğrafiyaya yeni inkişaf tempi qazandırmaqdır. Sülhün imzalanmasına bir addım qalmış mənzərə təxminən bu formadadır - Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan yeni iqtisadi-siyasi güc mərkəzinin formalaşdırılması üçün əməkdaşlıq platforması təklif edir, bu yolda ortaya çıxan manеələri aradan qaldırmaq üçün bütün diplomatik, iqtisadi, siyasi rıçaqlarından istifadə edir. Bu gün ölkəmiz yalnız regional təhlükəsizlik məsələlərinin fəal iştirakçısı deyil, həm də Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən strateji nəqliyyat və enerji qovşağı rolunu oynayır. Məhz bu yeni mövqe 3+3 əməkdaşlıq platformasının imkanlarını genişləndirir və ona əvvəlkindən daha funksional məzmun verir.

### “3+3” formatının gələcək görüşü...

Yeri gəlmişkən, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, “3+3” platforması Cənubi Qafqaz ölkələrində əməkdaşlığın və davamlı inkişafın gücləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. O, Rusiyanın Azərbaycan ilə Ermənistan arasında formatın ölkələrinin xarici işlər nazirlərinin növbəti görüşünün harada - Bakıda və ya İrəvanda keçiriləcəyi barədə tez bir zamanda razılığa gəlməsini gözlədiyini vurğulayıb. Onun sözlərinə görə, tərəflər görüşlərin ardıcıllığını əldə edilən paket razılığına əsasən müəyyən etməlidirlər. Moskva Bakı və İrəvanın istənilən birgə qərarını dəstəkləyəcək.

Qeyd edək ki, “3+3” formatı kimi müəyyənləşdirilən, Azərbaycan ilə Türkiyənin təşəbbüsü ilə həyata keçirilən platforma region problemlərinin regiondan kənar ölkələrin iştirakı olmadan, regional əməkdaşlıqların möhkəmləndirilməsini əks etdirməkdədir. Qeyd edək ki, “3+3” formatında ilk iclas Gürcüstanın iştirakı olmadan xarici işlər nazirlərinin müavinləri səviyyəsindən 2021-ci il 10 dekabr tarixində Moskvada keçirilmişdi. Sonrakı tədbir isə 2023-cü ilin oktyabrında XİN başçılarının iştirakı ilə Tehranda reallaşıb. Moskva toplantısında iqtisadiyyat, energetika, ticarət, nəqliyyat, informasiya-kommunikasiya texnologiyaları, təbii ehtiyatlar, təhsil, mədəniyyət, turizm kimi sahələr üzrə əməkdaşlığın perspektivi nəzərdən keçirilmişdisə, Tehranda




baş tutan beştərəfli görüşdə regional kommunikasiya məsələsi də müzakirə predmetinə çevrilmişdi. Bu formatda növbəti görüş isə ötən ilin oktyabrında Türkiyədə baş tutdu. Bu ilin yayında isə Ermənistan “3+3” formatında nazirlərin növbəti görüşünü keçirməyə hazır olduğunu bəyan edib.

“3+3” formatının missiyası iqtisadi əməkdaşlıq platforması təşkil etmək, bütövlükdə bölgənin maraqlarını özündə ehtiva edən addımların atılmasını təşviq etməkdir. Regionda iqtisadi münasibətlərin inkişafı və əməkdaşlığın möhkəmləndirilməsi üçün ən vacib şərtlərdən biri məhz Ermənistanın öz qonşuları ilə münasibətlərini sülh və ədalət çərçivəsində qurması-

### Azərbaycanın iradəsi ilə qətiləşən sabitlik faktoru

na əsaslanır. Rəsmi İrəvan anlamalıdır ki, heç halda iqtisadi inkişaf, regional əməkdaşlıq, qarşılıqlı anlaşma onların siyasi müstəqilliyini də təmin etmək iqtidarındadır.

Azərbaycan isə bütün hallarda istər təşəbbüskarı olduğu, istərsə də iştirakçı kimi təmsil olunduğu qlobal layihələrin ilk növbədə qlobal səmərəsini düşünür - ölkəmiz üçün bölgənin ümumi inkişaf tempinin yüksəlməsi əsas hədəfdir. Məhz ölkəmizin səyi nəticəsində Cənubi Qafqaz yeni iqtisadi-siyasi nizamın ən mühüm elementlərindən biri qismində çıxış edir. Azərbaycanın siyasi qətiyyəti sayəsində regional sabitlikdən tutmuş enerji-logistika inteqrasiyasına qədər geniş sahələr birmənalı əməkdaşlıq müstəvisinin konturlarını təşkil edir. Azərbaycan bu prosesdə həm sülhün təminatçısı, həm də inteqrasiyanın əsas həlqəsi rolunu oynayır. Rəsmi Bakı regional dövrdə təcridçilik deyil, əməkdaşlıq xəttini seçərək bütün dövlətlər üçün ortaq maraq zonası formalaşdırmağa nail olub - Ermənistana taxıl ixracına icazənin verilməsi buna bariz sübutdur. Beləliklə, Azərbaycanın səyi ilə əməkdaşlıq mexanizmləri iqtisadi modelə çevrilərək yeni regional arxitekturanın əsas elementlərindən biri kimi çıxış edir. Həm Şərqin, həm də Qərbin geosiyasi maraq dairəsində olan coğrafiyamızı “vazkeçilməz” edən də məhz Azərbaycanın iradəsi ilə qətiləşən sabitlik faktorudur.

### Region üçün daha geniş perspektivlər...

Bakı qlobal mühitdə siyasi-iqtisadi əlaqələrini formalaşdıran zaman ən yüksək standartları müəyyənləşdirir - ölkəmizin Mərkəzi Asiya ilə əlaqələrini yeni mərhələyə daşıması, Türk Dövlətləri Təşkilatındakı fəal iştirakımız, Orta Dəhliz layihəsinə verilən töhfə, Transxəzər enerji və nəqliyyat mübadilələrinin genişlənməsi Azərbaycanı Şərqlə Qərb, eləcə də Şimalla Cənub arasında körpü dövlətə çevirib. Bu paralellər onu göstərir ki, artıq Azərbaycan həm regiondaxili, həm də regionlararası əlaqələrin mərkəzi qovşağındadır. Bakı bütövlükdə Avrasiyanın əməkdaşlıq coğrafiyasının mərkəzidir. Azərbaycanın təşəbbüsü ilə Xəzər üzərindən yük axınları artır, Bakı-Tbilisi-Qars xətti genişləndirilir, yeni liman və logistika infrastrukturunun modernləşdirilməsi Asiya ilə Avropanı birləşdirən əsas marşrutu ölkəmizin üzərindən keçirir.

Beləliklə, Azərbaycan yeni əməkdaşlıq əsrinin həm məzmununu, həm istiqamətini, həm də real nəticələrini müəyyən edən aparıcı aktor rolunda çıxış edir. Postmüharibə reallıqları, Mərkəzi Asiya ilə genişlənən əməkdaşlıq, qlobal enerji və nəqliyyat xəritəsində artan rol, Cənubi Qafqazdakı sülh və əməkdaşlıq təşəbbüsləri, paralel olaraq “3+3” əməkdaşlıq formatı region üçün yeni funksional, daha dayanıqlı və daha geniş perspektiv vəd edir.

*P.SADAYOĞLU*

# Regionda ilk Mərkəz

## Beynəlxalq statuslu Akselerasiya zonası Azərbaycanın innovasiya lideri kimi mövqeyini gücləndirəcək

Bakıda Beynəlxalq Telekommunikasiya İttifaqının (BTİ) yeni Regional Akselerasiya Mərkəzi fəaliyyətə başlayıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) ilə BTİ arasında əldə edilmiş strateji əməkdaşlıq çərçivəsində təsis edilən Mərkəz MDB regionunda ilk Akselerasiya zonası olmaqla, startapları, biznes subyektlərini, dövlət qurumları və təhsil müəssisələrini bir araya gətirərək innovativ sahibkarlıq potensialını təşviq edəcək. Mərkəz, eyni zamanda, rəqəmsal ekosistemdə əməkdaşlığı təşviq etmək və regional səviyyədə rəqəmsal transformasiyanın sürətlənmək yönündə yaradıcı ideyaları və biznes təşəbbüslərini dəstəkləyəcək.

BTİ Akselerasiya Mərkəzi sürətlə dəyişən rəqəmsal dünyada təhlükəsiz və etibarlı şəkildə irəliləmək üçün yeni, daha dayanıqlı və gələcəyə yönəlmiş yanaşmaları inkişaf etdirməyi hədəfləyən 17 innovasiya mərkəzindən ibarət şəbəkənin bir hissəsidir. Təşəbbüs BTİ-nin "Rəqəmsal İnkişaf üçün İnnovasiya və Sahibkarlıq Alyansı"nın bir hissəsi olaraq yaradılıb. Alyans həyata keçirilən texnoloji layihələr vasitəsilə iqtisadi inklüzivliyi və dayanıqlı inkişafı təşviq edir. İttifaq Akselerasiya Mərkəzləri dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi və innovativ potensialın real imkanlara çevrilməsi istiqamətində əsas platforma rolunu oynayır.

### Azərbaycan Cənubi Qafqazda nəhəng rəqəmsal baza qurur

Azərbaycan Cənubi Qafqaz regionunda rəqəmsal lider olmaq üçün qlobal innovasiya liderləri ilə ambisiyalı layihələr icra edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində ilk dəfə ölkəmizdə qurulmuş nəhəng İT ekosistemi - TIER III səviyyəli, PCI DSS standartlarına cavab verən Data Mərkəzi də məhz Azərbaycanda yaradılıb. Data Mərkəzi son 10 ildə öz potensialını genişləndirərək isüni intellekt və robot fəaliyyətini təmin edən infrastruktur bazasına çevrilib və 250-dən çox quruma müxtəlif "bulud" xidmətləri göstərilir. Hazırda Azərbaycan iki yeni Data Mərkəzi inşa edir ki, 2027-ci ildə istifadəyə verilməzi gözlənilən həmin mərkəzlər regionda ən böyük rəqəmsal ekosistem olacaq. Həmin nəhəng rəqəmsal şəbəkə superkompüter və süni intellekt xidmətləri üçün informasiya və data sütunları kimi nəzərdə tutulub.

Bütün bu amillər Azərbaycanda robot və süni intellekt klasterlərinin yaradılması sahəsində bölgədə fiber-rəqəmsal habı formalaşdıracaq. Bu prosesdə isə sözsüz ki, Akselerasiya Mərkəzi milli hədəflərin bir koordinasiyası kimi texnoloji tərəqqiyə dəstək verəcək. Mərkəzdə startapların Beynəlxalq Telekommunikasiya İttifaqının metodologiyası və standartlarına əsasən tərtib olunan akselerasiya proqramlarında iştirakının təmin edilməsi isə süni zəka təmsilçilərimizin qlobal bazarlara çıxışını daha da sürətləndirəcək. Eyni zamanda, qabaqcıl dünya təcrübəsi ilə ölkəmizdə innovasiya mədəniyyəti də inkişaf edəcək. İRİA-nın sədri Fərid Osmanovun da vurğuladığı kimi Mərkəz Azərbaycan və regionun digər ölkələrindən olan startaplar və innovativ layihələr üçün qovşaq rolunu oynayacaq və texnoloji məhsul və xidmətlərdən əldə edilən milli gəlirin artmasına töhfə verəcək,





### Hədəf innovasiya texnologiyalarının ÜDM-də payını 4,4 milyard dollara çatdırmaqdır

Rəqəmsal innovasiyalar, texnoloji məhsullar, o cümlədən robot və süni texnologiyalar hazırda qlobal ÜDM-in artmasına, inkişaf etmiş ölkələrin milli məhsul istehsalında əsas əlavə dəyər yaradan sahələrdən birinə çevrilməkdədir. Yaponiya və Çin iqtisadiyyatında yaranan əlavə dəyərin təxminən 1 faizə yaxını bu sektorun payına düşür. 2030-cu ilədək süni intellekt sahəsində Çinin gəliri təxminən 60 milyard dollar təşkil edəcək.

Bu baxımdan Azərbaycan da qlobal rəqəmsal çağırışlardan geri qalmamaq üçün özünün strateji konseptini müəyyən edir. Azərbaycan hökumətinin hazırladığı yeni rəqəmsal iqtisadiyyat strategiyasında da süni intellektin inkişafına dair hədəf prioritetləri nəzərdə tutulub. Yeni dövrdə qurulacaq ekosistem startap, inkubasiya və akselerasiya mərkəzləri, vençur və kraudfandinq institutları və s. texnoloji tutumlu sahələrə söykənəcək.

Azərbaycan da bu inkişaf əsrindən geri qalmaq istəmir, respublikamız 2040-cı ilə qədər iqtisadi artımın sürətləndirilməsində süni intellektin imkanlarından istifadə etməyi planlaşdırır və bu istiqamətdə beynəlxalq təşkilatlar və konsaltinq şirkətlərlə birgə layihələr icra etməyi düşünür. Qiymətləndirmələrə görə, Azərbaycan dilində generativ süni intellekt ölkə iqtisadiyyatına əlavə 4,4 milyard dollar gəlir gətirəcək. Bundan əlavə, böyük həcmli məlumatları generasiya edə biləcək rəqəmsal proqramın istifadəyə verilməsi bu potensialı daha da böyüdərək əlavə dəyərin həcmlərini də artıra bilər.

Beynəlxalq Telekommunikasiya İttifaqının müxtəlif ölkələrdə yaratdığı regional Akselerasiya Mərkəzlərinin əsas prinsiplərindən biri süni intellekt üzrə imkanların əlaqələndirilməsində tədris, təhsil, elm və iqtisadiyyat formulunun müasir vəhdətini formalaşdırmaqdır. Bu baxımdan Bakıda istifadəyə verilən Akselerasiya Mərkəzi bu sahədə vahid əməkdaşlığın transformasiyanı təmin edəcək, insan kapiatlına əsaslanan yeni innovativ kadr korpusunun yetişdirilməsini sürətləndirəcək.

Beləliklə, Akselerasiya Mərkəzinin fəaliyyəti sayəsində Azərbaycanın milli prioritetləri BTİ-nin qlobal missiyası ilə uzlaşdırılacaq, ölkəmizin regional innovasiya lideri kimi artan mövqeyini gücləndirəcək, regional müstəvidə innovasiya ekosisteminin inkişafına güclü təkan verəcək.

***E.CƏFƏRLİ***

# İqtisadi münasibətlərdə yeni dövr

## Azərbaycan-Misir Hökumətlərarası Komissiyanın iclasında yeni iqtisadi prioritetlər müəyyənləşdirilib

Qahirədə Azərbaycan-Misir Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın altıncı iclası keçirilib. Komissiyanın həmsədri, Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, 2002-ci ilin oktyabrında yaradılmış Hökumətlərarası Müştərək Komissiya ötən illər ərzində müxtəlif istiqamətlərdə iqtisadi-ticari təşviqlərin real nəticələrlə tamamlanmasında fəal rol oynayıb. Komissiyanın fəaliyyətinin nəticəsi olaraq indiyədək ölkələrimiz arasında 60-dan çox sənəd imzalanıb. Həmin sənədlərin icrası isə iqtisadiyyatın bir çox sahələrində, o cümlədən, ticarət və investisiya bölmələrində imkanların üzə çıxarılması və inkişafında, habelə beynəlxalq iqtisadi platformalarda əməkdaşlığın əlaqələndirilməsində mühüm rol oynayıb.

Misirin planlaşdırma, iqtisadi inkişaf və beynəlxalq əməkdaşlıq naziri Raniyə əl-Maşat bildirib ki, dərin köklərə malik iki dost dövlət arasında əlaqələrin zəngin tarixi var, son illərdə münasibətlər inkişaf edərək dinamik və uzunmüddətli tərəfdaşlıq səviyyəsinə yüksəlib. İqtisadi əlaqələrin intensivləşməsi turizm, xidmətlər, sənaye, tikinti, rabitə, kənd təsərrüfatı, İKT sahələrində müştərək müəssisələrin yaranmasını təmin edib. Hazırda ölkəmizdə misirli iş adamlarına məxsus 35 şirkət fəaliyyət göstərir, ancaq bu, tərəfləri qane etmir, daha çox sərmayə dövriyyəsi və ticarət mübadiləsinin həcminin artmasını vacib hesab edir. Buna görə də tərəflər ticarət əlaqələrinin genişləndirilməsi üçün mövcud potensialı bir neçə dəfə artırmağı planlaşdırır.

### Biznes-forum investisiya və işgüzar fəallığı təşviq edir

Hökumətlərarası Komissiyanın iclası çərçivəsində Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO-nun və Misirin Sərmayə və Azad Zonalar üzrə Baş Qurumunun (GAFI) birgə təşkilatçılığı ilə Biznes-forum keçirilib. Forumda çıxış edən R.Nəbiyev bildirib ki, qeyri-neft və enerji sahəsində tərəflər arasında əməkdaşlıq çoxşaxəlidir və bu əlaqələrin genişləndirilməsi üçün davamlı tədbirlər həyata keçirilir. Azərbaycanın yüksək texnologiyalar parklarında İT şirkətləri üçün tətbiq edilən güzəşt və imtiyazlar misirli sərmayəçilər üçün maraq doğura bilər. Eyni zamanda, Azərbaycanın rəqəmsal məhsullarının Misirə ixracı imkanları genişdir və biznes icmasının üzərinə ciddi vəzifələr düşür. Qeyd edilib ki, SOCAR-ın Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlığı da bölgənin enerji təchizatı və şaxələnməsi üçün əhəmiyyət daşıyır. Əlaqələr turizm sahəsində də inkişaf edir və son illər Misirdən Azərbaycana gələn turistlərin sayı 50 faiz artıb.



Biznes-forum çərçivəsində iki ölkədəki investisiya imkanları, Ələt Azad İqtisadi Zonasında, eləcə də Azərbaycanın digər sənaye və texnologiya parklarında tətbiq olunan güzəştlər barədə məlumat verilib, Misir şirkətlərinə ölkəmizə investisiya qoyuluşu imkanlarını nəzərdən keçirmək təklif olunub. Eyni zamanda, vurğulanıb ki, Azərbaycan - Misir Biznes Şurasının fəaliyyətinin aktivləşdirilməsi iki ölkə arasında ticarət əlaqələrinin inkişafına öz töhfəsini verə bilər.

### Tranzit potensiallarından birgə istifadə

Raniyə əl-Maşat isə qeyd edib ki, ölkəsinin investorları Azərbaycanla sənaye və texnologiya, əczaçılıq, avtomobil sənayesi, toxuculuq, sement istehsalı, tibbi avadanlıqların hazırlanması sahələrində əməkdaşlığı genişləndirmək niyyətindədir. Misir yüksək istehsal imkanları olan sektorlarda, tekstil, emal, yüngül sənaye sahələrində tərəfdaşlığın yeni istiqamətlərini araşdırır və konkret anlaşma sazişləri imzalmaq qənaətindədir. Misirli nazir öz ölkəsinin tranzit, logistika və beynəlxalq bazarlara çıxış üçün əlverişli imkanlara malik olduğunu xatırladar Orta Dəhlizdə strateji mövqeyə malik Azərbaycanı tranzit xətlərini əlaqələndirməyə dəvət edib. Həmçinin Misir şirkətləri yükdaşımalarında Azərbaycanın tranzit potensialından - Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Şimal-Cənub marşrutlarından da yararlana bilər. Misirdə münbit investisiya mühitinin formalaşdığını bildirən nazir Süveyş kanalı İqtisadi Zonası ilə Azərbaycanın iqtisadi zonaları arasında yaxın ticari-investisiya bağlantılarının qurulmasının mümkünlüyünə də diqqət çəkib.

Afrika qitəsinin şimal-şərqində, Yaxın Şərq bölgəsində yerləşən Misir Ərəb Respublikası Azərbaycan arasında münasibətlərin inkişafı rəsmi Bakının xarici siyasət kursunda prioritetlərdən birini təşkil edir. Dövlət başçılarının və hökumət nümayəndələrinin qarşılıqlı səfərləri Azərbaycan-Misir münasibətlərinin möhkəmləndirilməsində və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsində böyük əhəmiyyət kəsb edib, müxtəlif sahələri əhatə edən çoxsaylı sənədlər imzalanıb. Həmçinin, Ərəb Ölkələri Liqası və Afrika Birliyi Təşkilatının dünya iqtisadiyyatına inteqtasiyasını sürətləndirən iradəli addımlar atması region dövlətləri, o cümlədən Azərbaycanla münasibətlərin inkişafında yeni mərhələ açıb. 2005-ci ildən Azərbaycanın Ərəb Dövlətləri Liqasında, 2011-ci ildə isə Afrika Birliyində müşahidəçi statusu alması Qahirə ilə münasibətlərin daha da inkişafına əsaslı zəmin yaradıb. İslam həmrəyliyi amili də Azərbaycan-Misir münasibətlərinin İslam Əməkdaşlıq Təşkilatı, BMT və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığının dərinləşməsində mühüm rol oynamaqdadır.

Misir Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəkləyib və üzv olduğu beynəlxalq təşkilatlarda ədalətli mövqeyini daim müdafiə edib, öz ərazi bütövlüyünü təmin edən respublikamızla yeni quruculuq dövründə birgə addımlar atmaq niyyətini bəyan edib.

### Misir iş adamlarının Qarabağda sərmayə niyyətləri

Azərbaycan Prezidentinin 2022-ci ilin noyabrında Ərəb Dövlətləri Liqasının Əlcəzairdə keçirilən 31-ci Zirvə toplantısında Misirin dövlət başçısı ilə görüşü, 2023-cü ilin yanvarında Azərbaycanda olan Prezident Əbdülfəttah Əs-Sisi ilə dövlətimizin başçısı İlham Əliyevin görüşü, habelə 2024-cü ilin iyununda Misir Respublikasına rəsmi səfəri münasibətlərin inkişafında yeni səhifə açıb. Səfər zamanı imzalanan sənədlər ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına töhfələr verib.



Azərbaycan ilə Misir arasında siyasi-iqtisadi əlaqələrin qarşılıqlı hörmət, dostluq və faydalı əməkdaşlıq əsasında inkişaf edərək müasir çağırışlar əsasında yeni məzmun daşımaqdadır. Bu baxımdan iki ölkənin iş adamları arasında iqtisadi təmasları möhkəmləndirən Biznes-forumun keçirilməsi investisiya və işgüzar fəallığın artmasında təşviqedici rola malikdir. Forumda səslənən fikirlərdən də aydın olur ki, Misir iş adamlarının işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa-quruculuq işlərində iştirak etmək, yaradılan biznes mühitindən, həyata keçirilən "yaşıl enerji" layihələrindən faydalanmaq niyyətləri var.

Azərbaycan-Misir Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın altıncı iclasında bəyan edilən fikirlər bir daha təsdiq edir ki, Azərbaycan-Misir arasında iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub və tərəflər mövcud olan birgə böyük potensialları gücləndirməklə daha geniş iqtisadi-ticarı nəticələrə nail olmağa çalışır. Sözsüz ki, Komissiyanın müəyyən etdiyi yeni prioritetlər bu hədəflərə çatmağa imkan verəcək.

***E.CƏFƏRLİ***

# 87 idi, 27-si qaldı...

## Sülh prosesinin yekun mərhələyə qədəm qoyması erməni lobbisini narahat edir

Avqust ayında Vaşinqtonda baş tutan üçtərəfli danışıqlar, Ermənistan ilə Azərbaycan arasında sülh sazişi layihəsinin paraflanması münasibətlərin normallaşması prosesinə yeni bir yön verib - artıq hər iki ölkə sülh sənədinin imzalanmasının yaxın olduğunu bildirirlər və prosesin geridönülməzliyini vurğulayırlar. Paralel olaraq regionda digər sülhmöhkəmləndirici amillərin də rolu danılmazdır - Zəngəzur dəhlizinin (TRIPP) açılışı rəsmiləşir, Türkiyə - Ermənistan sərhəddinin açılmasının da öz həllini tapacağına inam var. Bu isə özlüyündə prosesin məntiqi nəticəyə doğru yol aldığını deməyə əsas verir. Baş verənlərdən ən böyük narahatlığı isə erməni lobbisi keçirir. Qarabağ mövzusunu özü üçün siyasi manevr predmetinə çevirən erməni lobbisi artıq məğlub olduğunu anlayır - istər xaricdə, istərsə də Ermənistan daxilində onların heç bir dəstəyi qalmayıb.

Amma bununla belə yenə də son çırpınışlarından əl çəkmirlər - xüsusilə, Bayden-Blinken hakimiyyəti dövründə ABŞ konqresində erməni maraqlarının müdafiəçisi kimi çıxış edən şəxslər yaranan vəziyyətdən "çıxış yolu" tapmağa niyyətləniblər.

### Bu dəfə 27 senator...

Belə ki, ABŞ Senatının 27 üzvü Ed Marki və Şeldon Uaythausun rəhbərliyi, həmçinin Senatın demokrat lideri Çak Şumerin dəstəyi ilə ABŞ-ın Dövlət katibi Marko Rubioya məktub ünvanlayaraq Azərbaycana qarşı sərt tələblər irəli sürüblər. Senatorlar Rubiodan "Bakıda saxlanılan bütün erməni hərbi əsirlərin" və separatçı siyasi liderlərin "dərhal və qeyd-şərtsiz azad edilməsinə" nail olmağı tələb edirlər. Məktubda, həmçinin Azərbaycanın məhkəmə proseslərinə beynəlxalq müşahidəçilərin buraxılması və Azərbaycan rəsmilərinə qarşı "Qlobal Maqnitski Aktı" çərçivəsində sanksiyaların tətbiqi çağırışı yer alıb.

Senatorlar məktubda iddia edirlər ki, guya, Azərbaycanda saxlanılan separatçı qrupların üzvləri "amansız və alçaldıcı rəftara məruz qalıb", Bakıda keçirilən cinayət məhkəmələrində "qeyri-şəffaflıq və prosessual pozuntular" mövcuddur. Onlar, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsinin müəyyən dövrlərdə regiondan çıxarılmasını "erməni məhbusların təhlükəsizliyini riskə atan faktor" kimi təqdim etməyə çalışıblar.

Məktubda senatorlar iddia edirlər ki, son iki ildə "120 min ermənənin Qarabağ bölgəsindən zorla çıxarıldığı" və bunun "etnik təmizləmə" kimi qiymətləndirildiyi bildirilir. Bu arqumenti əsas gətirən senatorlar ABŞ administrasiyasını "səssizlikdə günahlandırır" və Vaşinqtonun "regionda ədaləti təmin etmək üçün qəti mövqe nümayiş etdirməli olduğunu" qeyd edirlər.

### Cinayətdə ittiham olunan şəxsləri məsuliyyətdən yayındırmaq arzusu...

Sirr deyil ki, ABŞ-dakı erməni diasporu həmişə Ermənistanı müharibəyə sürükləyib, Qarabağ kartından özü üçün siyasi manipulyasiya vasitəsi kimi istifadə edib. Onların "himayəsinə" sığınan bəzi senatorlar və konqresmenlər isə bu məsələyə maliyyə və siyasi dəstək almaq üçün "imza" atırlar. Son 11 ayda bu tip "müraciət" artıq üçüncüdür - bundan öncə, fevral və iyul aylarında analoji "müraciətlər" edilmişdi. Erməni maraqlarını bəzi məqamlarda öz ölkəsinin mənafeyindən üstün tutan Bayden administrasiyasının seçkilərdə məğlub olmasının ardından ABŞ-da yeni siyasi mühit formalaşmışdı. Ard-arda edilən "müraciətlərin" də mahiyyətində bu məsələyə dayanır - son 11 ayda atılan addımlar, yeni administrasiyanın apardığı şəffaf siyasət, xüsusilə Vaşinqton görüşündə əldə olunan razılıqlar erməni lobbisinin "dəyənək dəstəsi"nə çevrilmiş konqresmenləri "tərpədib". Məsələnin mahiyyətinə keçməmişdən vurğulanmalıdır ki, müraciət edənlərin sırası get-gedə seyrəlir - əgər aylar öncə bu "müraciətə" 87 deputat imza atırdısa, artıq onların sayı 3 dəfə azalıb. Səbəb isə bəllidir - hər kəs reallığı görür və dəyərləndirir. Konkret cinayətlərdə ittiham olunan, hazırda məhkəmə prosesi davam edən şəxslərin "azad edilməsi" kimi yolverilməz və siyasi mahiyyətə malik "iddia"nın irəli sürülməsi qeyri-realdır. Bu şəxslər məhkəmə qarşısındadır - hüquq və ədalət onların törətdikləri əməllərin məsuliyyətinin dərəcəsini müəyyən edəcək. 27 senatorun prosesi qabaqlamağa çalışaraq cinayətdə ittiham olunan şəxsləri məsuliyyətdən yayındırmaq cəhdi isə birbaşa hüquqa zidd addımdır. Təbii ki, səbəb də bəllidir - ittiham olunan şəxslər arasında erməni lobbisinin ayrı-ayrı ölkələrdəki, xüsusilə ABŞ-dakı yerli icmaları ilə yaxın və hətta biznes əlaqələrinə malik şəxslər mövcuddur. Bunun nəticəsidir ki, məhkəmə müddətində həmin amerikalı deputatlar cidd-cəhdlə onların azadlığa çıxmasını, məsuliyyətdən yayınmasını istəyirdilər.



### "120 min erməni" yalanı...

Məktubu imzalayan senatorlar son iki ildə "120 min ermənənin Qarabağ bölgəsindən zorla çıxarıldığını" yazır və bunu "etnik təmizləmə" kimi qələmə verir. Təbii ki, bu da ağ yalandır - 2023-cü ilin sentyabrında baş tutmuş antiterror tədbirlərindən sonra könüllü şəkildə Qarabağdan Ermənistana köçən insanların təhlükəsizliyi tam şəkildə təmin edilmişdi - bunu təsdiqləyən, videokadrlar da mövcuddur. Paralel olaraq, Ermənistana getməyi qərarlaşdıran şəxslərə nəqliyyat vasitələri ilə bağlı yardım belə edilib. Ən əsası isə, onlara Qarabağda qalıb orada yaşamaq da təklif edilmişdi - təklifi qəbul edəcək şəxslər Azərbaycan qanunları çərçivəsində yaşayacaqdı. Amma onlar Azərbaycan ərazisindən Ermənistana köçməyə üstünlük verdi - Azərbaycan isə həmin insanların qərarına hörmətlə yanaşdı.

Könüllü köç edən insanların sayına gəldikdə isə bu rəqəm qəsdən şişirdilib - çünki rəqəm ortadadır. Azərbaycan torpaqlarını tərk etmiş erməni əsilli şəxslərin mütləq əksəriyyəti Ermənistan vətəndaşıdır və Ermənistan Respublikasının pasportunu daşıyır. Belə olan halda, onlar necə Qarabağın "erməni əhalisi" sayıla bilər? 27 senatorun qərəzi bu məqamda da özünü açıq şəkildə büruzə verir.

Əslində, bu senatorların məktubu birbaşa ABŞ Prezidenti Donald Trampın dünyada apardığı sülhpərvər siyasətə qarşı yönəlib. Donald Trampın hakimiyyətə gəldikdən sonra qlobal məkanda 10-a yaxın münaqişənin başa çatdırması faktı hər kəsə bəllidir. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanması, Zəngəzur dəhlizi (TRİPP) ilə bağlı razılaşmanın əldə olunması faktı da göz önündədir - Donald Tramp 30 ildən artıq davam etmiş bu münaqişənin başa çatması və sülhün imzalanması üçün olduqca faydalı səy göstərib. Müraciət edən senatorlar isə artıq başa çatmaqda olan münaqişənin yenidən alovlanmasında maraqlı görünürlər. Bu konqresmenlərin bəyanatı regionda sülh prosesinə dəstək verən Prezident Trampa qarşı yönəlib - məqsəd yenidən münaqişəni alovlandırmaqla yanaşı, həm də Trampın dəstək verdiyi sülh gündəliyini aradan qaldırmaqdır. "Ermənilərin Qarabağa qayıdışı" tələbinin səsləndirilməsi isə

### Tramp "Vaşinqton bataqlığı"nı qurudur...

sülh prosesini ləngidilməsinə hədəflənib. Təsadüfi deyil ki, bir neçə ay öncə Prezident İlham Əliyev III Qlobal Şuşa Media Forumunda Prezident Trampın fəaliyyətindən danışarkən demişdi ki, o, müharibələrə başlamamış yeganə ABŞ Prezidentidir. Həm də hakimiyyətdə olduğu qısa müddətdə müharibələrə son qoyan bir adam olduğu aydın görünür. Biz, həmçinin Azərbaycana və Ermənistana son nəticədə razılığa gəlməyə kömək etmək səylərinə görə ona çox minnətdarıq: "O, beynəlxalq təhlükəsizlik üzrə daha qlobal məsələlərlə məşğul olmasına baxmayaraq, Cənubi Qafqazdakı şəraiti də diqqət mərkəzində saxlayır. Əlbəttə, onun qələbəsi bir sıra səbəblərdən Azərbaycanda bizi çox sevindirir. Təbii olaraq, arzulayırıq ki, o, işini sona çatdırsın, "Vaşinqton bataqlığı"nı dibinə qədər qurutsun".

Beləliklə, korrupsioner, uzun illər cəzasız qalan fırıldaqçı senator və konqresmenlər Tramp administrasiyasının bu "bataqlığı" qurudacağını və cəzalandırılacaqlarını anlayıblar. Onların Trampın bütün təşəbbüslərini, o cümlədən sülh təşəbbüslərini də gözdən salmağa çalışmaları buradan qaynaqlanır.

*P.İSMAYILOV*

# Cenevrədən Əbu - Dabiyə...

Ukrayna-Rusiya münaqişəsinin artıq üçüncü ildən sonra yeni geosiyasi mərhələyə keçməsi sülh gündəliyində də müəyyən dəyişikliklərə gətirib çıxarıb. Qərb dünyasında müxtəlif platformalarda başlayan müzakirələr tədricən lokallaşmış hərbi qarşıdurmanın qlobal təhlükəsizlik arxitekturasına təsirini ortaya qoyur. ABŞ-ın təşəbbüsü ilə formalaşdırılan yeni sülh planı da məhz bu geniş mənzərənin içində meydana çıxır. Son aylarda Vaşinqtonun yaratdığı dialoq formatları Cenevrədən Əbu Dabiyə qədər uzanan diplomatik marafona çevrilmiş vəziyyətdədir. Bu görüşlər həm tərəflərin mövqelərinin yaxınlaşdırılması, həm də regiondakı geosiyasi güc balansının daha aydın şəkildə müəyyənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Cenevrədə baş tutan ilkin platformalar ABŞ planının konturlarını ortaya çıxararkən, Yaxın Şərqdə - xüsusilə Əbu Dabidə təşkil edilən növbəti raundlar prosesin yalnız Avropa ilə məhdudlaşmadığını göstərir. Bu, həm də Vaşinqton münaqişənin tənzimlənməsinə qlobal konsensus yaratmaq niyyətinin rəmzi kimi qiymətləndirilir. Çünki enerji təhlükəsizliyi, ərzaq böhranı, tədarük zəncirinin sabitliyi və yeni təhlükəsizlik riskləri artıq dünyanın müxtəlif regionlarını eyni dərəcədə narahat edir.

Görünən budur ki, görüşlərdə əsas məqsəd yalnız atəşkəs mexanizmini müzakirə etmək deyil, həm də gələcək regional təhlükəsizlik platformasının konturlarını formalaşdırmaqdır - ABŞ-ın təşəbbüslərinin intensivləşməsi isə onun Avroatlantik məkanın lideri kimi yeni geosiyasi reallıqlara uyğunlaşmaq cəhdinin nəticəsidir. Cenevrədən Əbu Dabiyədək aparılan diplomatik danışıqlar göstərir ki, sülh təşəbbüsləri artıq çoxşaxəli, çoxmərkəzli və çoxmənbəli siyasi dialoqa çevrilib. Bu proses yalnız müharibənin dayandırılması deyil, həm də post-münaqişə dövrünün qlobal konturlarının müəyyənləşdirilməsi üçün mühüm addım hesab olunur.

**Sülh planı dəyişəcəkmi?**

### Trampdan xəbərdalıq: 27 noyabra qədər...

Xatırladaq ki, ABŞ-ın sülh planı ilə bağlı Cenevrə danışıqlarında Ukrayna, ABŞ və aparıcı Avropa ölkələrinin nümayəndələri iştirak ediblər. Ötən həftə baş tutan məsləhətləşmələrdə Rusiya-Ukrayna münaqişəsinin sülh yolu ilə həlli üçün ABŞ planı müzakirə olunub. Görüşlərdə Fransa, Almaniya və Böyük Britaniyadan milli təhlükəsizlik müşavirləri, Avropa Komissiyası nümayəndəsi, eləcə də Avropa Şurası prezidentinin köməkçisi Pedro Lurti iştirak ediblər. "Washington Post"-un və CNN-in məlumatına görə, Marko Rubionun rəhbərlik etdiyi ABŞ nümayəndə heyəti geniştərkibli olub - onun tərkibinə Prezidentin xüsusi elçisi Stiv Vitkoff, Amerika sülh planının həmmüəlliflərindən biri olan Cared Kuşner, Milli Təhlükəsizlik müşavirinin müavini Endi Beyker, Dövlət Departamentinin müşaviri Mayk Nidhem, ABŞ-ın Ukraynadakı müvəqqəti işlər vəkili Culi Devis, ABŞ Ordu katibi Daniel Driskol və Müttəfiq Qüvvələrinin Avropa üzrə Ali Komandanı Aleksus Qrinkeviç daxil olub.

Ukrayna nümayəndə heyətinə Prezident Aparatının rəhbəri Andrey Yermak rəhbərlik edib. Britaniya, Almaniya və Fransa liderlərinin milli təhlükəsizlik müşavirləri Conatan Pauell, Günter Sautter və Emmanuel Bonn ilə görüşdən sonra Ukrayna və ABŞ nümayəndə heyətləri bir araya gəlib - danışıqlar iki sessiyadan ibarət olub.

Qeyd edək ki, ABŞ tərəfindən hazırlanmış 28 bəndlik sülh planının mətni noyabrın 20-də Ali Radanın üzvü Aleksey Qonçarenko tərəfindən bəyan edilmişdi, daha sonra bu fakt Ağ Ev tərəfindən təsdiqlənmişdi. ABŞ dövlət katibi Marko Rubio qeyd etmişdi ki, planın üzərində iş aparıla bilər - O, Ukraynadakı münaqişənin həlli üçün geniş ciddi və real fikirlərin mübadiləsinə ehtiyac duyulduğunu söyləmişdi. ABŞ prezidenti Donald Tramp isə Kiyevin planla bağlı mövqeyini 27 noyabr tarixinə qədər dəqiqləşdirməli olduğunu söyləyib.

Prinsip etibarı ilə Moskva ABŞ təkliflərinə müsbət münasibət bildirir - Putinin 21 noyabrda bildirdiyi kimi, Trampın sülh planı Alyaskada keçirilən Rusiya-Amerika sammitindən əvvəl də müzakirə olunub, o zaman Vaşinqton Moskvadan müəyyən güzəştlər istəyib. Ankoricdə Rusiya ABŞ-ın təklif etdiyi planla razılaşıb, lakin sonra prosesdə müəyyən fasilə yaranıb.

### Aİ-nin sülh planı iflasa uğradı...

Cenevrə görüşündə ən diqqət çəkən məqamlardan biri Avropanın davranışları olmuşdu.

Belə ki, Almaniya, Fransa və Böyük Britaniya da "Amerika təklifləri"nə əsaslanan "Avropa sülh planı" hazırlamışdılar. Hətta bununla bağlı Ukrayna prezidenti Volodimir Zelenski ilə danışıqlar da aparılmışdı. Təsadüfi deyildi ki, Avropa rəsmiləri açıq şəkildə bildirirdilər ki, Ukrayna ilə bağlı müzakirələr Kiyev və Aİ-nin iştirakı olmadan mümkün deyil. Avropalıların ən çox tənqidi yanaşdığı bənd Kiyevin ərazi güzəştlərini nəzərdə tutan bənd olub. 24 bənddən ibarət Avropa razılaşma planının layihəsinin 3-cü bəndində yer alan "Rusiyanın qonşu ölkələrə hücum etməyəcəyi və NATO-nun daha da genişlənməyəcəyi gözlənilir" bəndi gözlənilmədən çıxarılmışdı.

İki plan bəzi məqamlarda uyuşsa da, məzmun etibarı ilə əhəmiyyətli dərəcədə fərqlənir. Avropa planında Rusiyanın nəzarətində olan ərazilərin statusu barədə heç nə deyilmir. Sənəddə sadəcə olaraq "ərazi mübadiləsi ilə bağlı danışıqların təmas xəttindən başlayacağı" və Ukraynanın "işğal olunmuş suveren əraziləri hərbi yolla qaytarmamağı öhdəsinə götürdüyü" bildirilir.

Avropa planının 8-ci bəndinə əsasən, NATO Ukraynaya yalnız sülh dövründə qoşun yerləşdirməyəcək, Amerika sənədində isə NATO-nun prinsipcə respublikaya qoşun yerləşdirməyəcəyi razılaşdırılıb. Başqa maddələr üzrə də fərqli məqamlar çoxdur. "Politico"nun məlumatına görə, Rubio Aİ və NATO-dan olan həmkarlarına təhlükəsizlik narahatlıqlarının sülh müqaviləsində nəzərə alınacağına əminlik verib. Lakin Cenevrədə məsləhətləşmələrdən sonra o, jurnalistlərə bildirib ki, Avropa planını "görməyib" və həmin planın üzərində iş aparılmayacaq. ABŞ planına və Avropanın əks-təşəbbüslərinə qarşı tənqidlərə gəldikdə, Rubio qeyd etdi ki, ABŞ-ın orijinal təklifi inkişaf etdirilərək - bu plan "canlı, nəfəs alan sənəd"dir.





Danışıqlardan sonra Ukrayna nümayəndə heyətinin rəhbəri Yermak Telegram kanalında birgə Ukrayna-Amerika bəyanatı dərc edib. Orada bildirilirdi ki, hər iki tərəf danışıqları "son dərəcə məhsuldar" hesab edir - onlar "gələcək hər hansı bir razılaşmanın Ukraynanın suverenliyinə tam hörmət etməli və davamlı və ədalətli sülhü təmin etməli olduğunu" bir daha təsdiqləyiblər və "yenilənmiş və yekunlaşdırılmış çərçivə sənədi" hazırlayıblar. Vaşinqton və Kiyev Avropa tərəfdaşları ilə əlaqə saxlayarkən qarşıdakı günlərdə işlərini davam etdirəcəklər. Sənədlə bağlı son qərar iki ölkənin prezidentləri tərəfindən veriləcək.

### 9 bənd çıxarıldı...

Bloomberg xəbər verir ki, ABŞ-ın hazırladığı sülh planından 14-cü bəndi də çıxarılıb. Həmin bəndə əsasən, Rusiyanın dondurulmuş aktivlərindən əldə olunan 100 milyard dollarlıq gəlirin 50 faizi ABŞ-a çatmalı idi. Mənbə qeyd edir ki, bu maddə Ukrayna və bir sıra Avropa ölkələrinin kəskin narazılığına səbəb olduğundan sənəddən çıxarılıb.

Beləliklə, Cenevrə danışıqları Ukrayna ilə Rusiya arasındakı münaqişənin həlli üçün Amerika sülh planının əksər müddəaları üzrə razılaşma ilə yaddaqalan oldu. ABŞ və Ukrayna Amerika planının əksər bəndləri üzrə razılığa gəldilər, baxmayaraq ki, bəzi detallar prezidentlər arasında müzakirə olunmalıdır. Cenevrə danışıqlarının nəticəsi olaraq Amerika planı yeniləndi - mənbələr bildirir ki, 28 bənddən 19-u qalıb. Ukrayna tərəfi hesab edir ki, yenilənmiş plan layihəsi milli maraqlarını əks etdirir və təhlükəsizliyin təmin edilməsi üçün etibarlı mexanizmlər təklif edir.

### İkiraundlu Əbu-Dabi müzakirəsi - nələr gözlənilir?

Danışıqların növbəti raundu isə son 2 gündə Əbu-Dabidə reallaşıb. ABŞ ordusunun katibi Daniel Driskoll Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabiyə səfər edib və sülh müqaviləsini müzakirə etmək üçün Rusiya nümayəndəsi ilə görüşüb. CBS News bu barədə iki ABŞ rəsmisinə və iki diplomatik mənbəyə istinadən məlumat yayıb. Kanalın mənbələrindən birinin məlumatına görə, Driskoll 24 noyabr axşamı Rusiya nümayəndə heyəti ilə görüşüb və danışıqların daha bir mərhələsi 25 noyabr tarixinə planlaşdırılıb.

ABŞ rəsmisi bildirib ki, "Driskoll sülh prosesini müzakirə etmək və sülh danışıqlarını tez bir zamanda irəli aparmaq üçün iki raundu görüş planlaşdırıb. CBS-in məlumatı Financial Times-dakı mənbələr tərəfindən təsdiqlənib. FT-nin məlumatına görə, Driskolun həmçinin Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsinin rəisi Kirill Budanovla Əbu-Dabidə görüşü planlaşdırılıb. Hətta bəzi mənbələr Moskva, Kiyev və Vaşinqton nümayəndələri arasında üçtərəfli görüşün baş tutma ehtimalını da irəli sürüblər. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib ki, bu həftə Rusiya və ABŞ nümayəndələri arasında heç bir danışıqlar planlaşdırılmayıb, lakin Moskva danışıqlar üçün açıqdır.

*P.İSMAYILOV*

# İrəvan -KTMT ziddiyyətləri daha da kəskinləşir

Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Bişkekdə keçiriləcək sammitinə qatılmayacaq. Bu barədə Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib. O əlavə edib ki, İrəvan tədbirdə iştirak etməsə də, orada razılaşdırılacaq sənədlərin qəbuluna mane olmayacaq. Xatırladaq ki, sözügedən sammit 27 noyabrda keçiriləcək.

Rəsmi İrəvanın Bişkek sammitinə qatılmaqdan imtina etməsi Ermənistan - KTMT ziddiyyətlərinin kəskinləşməsində növbəti səhifəni təşkil edəcək. Qeyd edək ki, bu ölkə 2024-cü il fevralın 23-dən qurumda iştirakını dayandırıb. Rəsmi İrəvan həmçinin təşkilata üzvlük haqqı ödəmir.

## KTMT 44 günlük müharibəyə və antiterror əməliyyatına müdaxilə edə bilərdimi?

Baş nazir Nikol Paşinyan və onun komandasında yer alan rəsmilər ölkələrinin təşkilatdan incikliyinin KTMT-nin Ermənistan qarşısında öhdəliyini yerinə yetirməməsi ilə əlaqəli olduğunu bildirirlər. Onlar bununla bağlı dəfələrlə açıqlamalar veriblər. Ermənistan rəsmiləri KTMT-nin öhdəliklərini yerinə yetirməməsi iddialarından çıxış edərkən İkinci Qarabağ müharibəsi günlərində və ondan sonrakı dövrdə təşkilatın İrəvana hərbi dəstək göstərmədiyini əsas gətirirlər. Halbuki belə iddiaların hansısa bir əsası yoxdur.

Yaxın tarix hər kəsin yadındadır. Bir vaxtlar Ermənistan Azərbaycanı müttəfiqləri, daha çox da üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı ilə hədələyirdi. Bu ölkə 44 günlük müharibədə məhz KTMT-yə güvənərək Azərbaycanın keçmiş təmas xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini, mülki infrastrukturunu ağır artilleriyadan istifadə etməklə intensiv atəşə tuturdu. Ərazilərimizə qadağan olunmuş silahlar atan bu ölkənin hərbi-siyasi elitasında təmsil olunanlar açıq şəkildə bildirirdilər ki, Azərbaycan belə hücumlara cavab verib Ermənistan ərazilərinə atəş açsa, KTMT-dən hərbi yardım istəniləcək. Bəli, müharibə günlərində Ermənistanda KTMT-nin bu ölkəyə hərbi yardım göstərəcəyi ilə bağlı gözləntilər böyük idi. KTMT isə Ermənistan rəsmilərinin xəyallarını bir növ suya salaraq əritdi. Qurumdan Ermənistana hərbi yardım göstərilmədi və bunun hüquqi əsaslarını tapmaq da mümkün deyildi. Çünki Azərbaycanın başqa dövlətin ərazilərində müharibə aparmaq kimi bir niyyəti yox idi. Döyüşlər sırf respublikamızın ərazisində gedirdi. Bu, Azərbaycvan üçün ədalətli müharibə idi. Respublikamızın yeganə istəyi üç onillik ərzində işğal altında qalan torpaqlarımızı geri qaytarmaq idi ki, buna da Vətən müharibəsində nail oldu. Düşmən müharibə günlərində təmas xəttindən uzaqda yerləşən Gəncəyə, Mingəçevirə, Bərdəyə, Tərtərə raket zərbələri endirməklə ölkəmizi təxribata çəkmək istəyirdi. Məkrli plan bu idi ki, Azərbaycan da cavab atəşi ilə Ermənistan şəhərlərini bombalasın və bu halda KTMT-nin müdaxiləsi qaçılmaz hala gəlsin. Azərbaycan bu təxribata getmədi. Düşmənin cavabı zamanında işğal etdiyi ərazilərimizdə verildi.

Ermənistan rəsmiləri eyni canfəşanlığı 2023-cü il sentyabr ayının 19-20-də Azərbaycan lokal xarakterli antiterror əməliyyatı həyata keçirərkən də sərgilədilər. Yenə də KTMT-nin Ermənistanın köməyə gəlməsinə hansısa bir hüquqi əsas yox idi. Ermənistandan Azərbaycan ərazilərinə silah daşınmasının qarşısını almaq, separatçıların dövlətçiliyimizə, ölkəmizin konstitusiya quruluşunun pozulmasına hesablanan təxribat əməllərinə son qoymaq Azərbaycanın suveren hüququ idi və rəsmi Bakı da bu hüququndan beynəlxalq qaydalar çərçivəsində istifadə etməklə ölkə ərazisində separatizmin kökünü tamam kəsdi. Hansısa bir beynəlxalq təşkilatın, o cümlədən də KTMT-nin buna müdaxilə etməyə səlahiyyəti sadəcə çatmırdı.

Digər tərəfdən, o reallıq da ortadadır ki, KTMT-də yer alan dövlətlərin böyük əksəriyyəti Azərbaycanın dostlarıdırlar. Onların bir çoxu ilə respublikamız arasında strateji tərəfdaşlıq münasibətləri qurulub. Belə olan halda rəsmi İrəvanın KTMT-nin hərbi arsenalını Azərbaycana qarşı yönəltmək cəhdi hansı məntiqə sığırdı? Cavab birmənalıdır - kor məntiqə! KTMT işğalçıya dəstək verməməklə ədalətin və beynəlxalq hüququn yanında oldu və öz nüfuzunu qorumağı bacardı.

## İrəvanın Aİ-yə inteqrasiya cəhdi

Təbii ki, KTMT- nin Azərbaycana qarşı müharibəyə qoşulmaması rəsmi İrəvanı bu təşkilatdan incik salan yeganə bəhanə deyil. Bunun digər, bəlkə də, ən mühüm səbəbi Ermənistanın siyasi oriyentasiyasını dəyişməsindən, daha dəqiq desək, Rusiyadan qopub Avropa İttifaqına (Aİ) inteqrasiya etmək istəyindən qaynaqlanır. Son illərdə bu ölkədə köhnə müttəfiqlərlə vidalaşmaq, Qərbə üz tutmaq, o cümlədən də KTMT-də üzvlüyün Şimali Atlantika Alyansı (NATO) ilə əməkdaşlıqla əvəzlənməsi ilə bağlı intensiv müzakirələr aparılır. Bu planının konturları hər ötən gün özünü daha qabarıq şəkildə büruzə verir. Ermənistan özünün Qərbyönümlü dövlət olduğunu isbatlamaq üçün dəridən-qabıqdan çıxır, desək, əsl həqiqəti ifadə etmiş olarıq. Ölkənin rəsmiləri son vaxtlarda köhnə dostlarla əlaqələr qurmağa çox da həvəsli görünmürlər. Eyni zamanda, Rusiyadan uzaqlaşmaq, Qərbə inteqrasiya etmək ideyası cəmiyyətə geniş şəkildə təlqin edilir. Əkslən toxumlar da öz cücərtilərini verir. Belə ki, Ermənistan cəmiyyətində anti-Rusiya ovqatı getdikcə güclənir. Beynəlxalq "Gallup" Assosiasiyasının bir qədər bundan əvvəl Ermənistandakı rəsmi nümayəndəliyinin keçirdiyi rəy sorğusunun nəticələri də bunu təsdiqləyir. Qurumun yaydığı məlumatda bildirilir ki, Ermənistanın KTMT-də qalmasını əhalinin cəmi 17 faizi istəyir. "Ermənistan vətəndaşlarına ölkənin hansı təşkilata - KTMT-yə, yoxsa NATO-ya üzv olması ilə bağlı sual verilib. Respondentlərin 44,3 faizinin fikrincə, Ermənistan neytral ölkə olmalıdır. Bununla yanaşı, rəyi soruşulanların 16,9 faizi KTMT-yə, 29 faizi isə NATO-ya üzvlüyü dəstəkləyib", - deyə assosiasiyanın yerli nümayəndəsi Aram Navasardyan bildirib.

Həmçinin rəyi soruşulan vətəndaşların 56,7 faizi Ermənistanın Avropa İttifaqına daxil olmasının lehinə, 32,8 faizi isə əleyhinə çıxıb. Sorğunun nəticələri əslində Ermənistanın Qərblə Rusiya arasında siyasi poliqona çevrilməsinin təzahürüdür. Qeyd edək ki, hazırda ölkədə Avropa İttifaqına meylli olan iqtidar komandası ilə Rusiya ilə tərəfdaşlığa çağırış edən müxalifət və kilsə arasında ciddi siyasi mübarizə gedir. Gələn il keçiriləcək seçkilər yaxınlaşdıqca bu mübarizə daha da aqressiv hal alır.

*MÜBARİZ FEYİZLİ*




# Materiyanın çürük zənciri

## Saday Budaqlının "Fevral" povesti haqqında

əvvəli ötən sayımızda

"Fevral" povesti bir ailənin iflası haqqında elegiya, bir nəslin tənəzzül tarixçəsidir. Bu tarixçənin Balzakın Qorio atasından tutmuş Markesin Buendia soyundan olan personajlarına qədər dünya ədəbiyyatının bir çox məşhur obrazlarının bioqrafiyasıyla səsləşən məqamları var, ancaq əsərin məzmunu, mövzusu heç bir klassikin yaradıcılığından əxz olunmayıb, ədəbiyyatdan götürülməyib. Buradakı personajların prototiplərini tanımasam da, əminəm ki, onların orijinalları çox da uzaq olmayan keçmişimizdə bizdən çox da uzaq olmayan bir məsafədə yaşayıblar, müəllif onların bir qismini şəxsən görüb, tanıyıb. Yoxsa realist nağılçılıqdan fərqli bir üslubda qələmə alınmış ailə salnaməsi bunca real, inandırıcı görünməzdi.

Ümumiyyətlə, Saday Budaqlı nəsrində düzxətli, birqatlı, hamar, ütülü təhkiyə tərzinə çox az rast gəlinir, onun təhkiyəsi adətən dağınıq zamanların calağından yaranır, anaxronik olmadığı hallarda belə başlanğıcla sonun arası müxtəlif zaman layları, ömrün deyişik fəsilləri, qarışıq xatirələri, bulaşıq təəssüratlarıyla doldurulur. Əksər əsərlərində olduğu kimi "Fevral" povestində də müəllif bizə əhvalat söyləmir, dastan danışmır, nəslin tarixçəsini, obrazların keçmişini sayrışan xatirələrin, psixoloji çevrilmələrin fonunda "yeri gəlmişkən" yada salır.

Müəllif bu əsərində də adəti üzrə qəhrəmanının adını bizdən gizlədir. Cümlə-cümlə, abzas-abzas irəlilədikcə aydın olur ki, o, atasından qalma, daha doğrusu, atasının uzun illər öncə evin böyük oğlu, qəhrəmanın böyük qardaşı Vəli üçün tikdirdiyi evdə yaşayır. Özü də tək yaşamır, otaqların birində onun kiçik qardaşı qalır - məhz "qalır", çünki gəzərgi qardaşın bu evdə, bu yurdda həmişəlikmi, yoxsa müvəqqətimi məskunlaşdığı axıracan tam bəlli olmur.

Ortancıl qardaşın, yəni əsərin üçüncü şəxsin təkində təqdim olunan qəhrəmanının baxış bucağından kiçik qardaş oxucuya belə tanıdılır: "Otuz il gedib haralardasa küllənmişdi, vecinə almamışdı kimin başına nə gəldi, kim öldü, kim qaldı, indi peyda olub ki, guya onlar təqsirkardı bunun evdən didərgin düşməyində. Axı kimiydi deyən başını götürüb get, bu yaşa qədər bambılı kimi gəz, ailə qurma, bir yerə kül salıb oturma? Kimin nə günahı?! Hərdən şlyapasını başına keçirib seyrə çıxır, tanış-bilişə dəyir, orda da yəqin ağzını boş qoyub artıq-əskik danışır, gileylənir, onların ucbatından evsiz-eşiksiz qaldığını necəsə çatdırır. Başqa əlacı yoxdu, gərək danışsın, heç kimə ağzını açmağa aman verməsin, birdən dədəsinin qəbrinin yerini soruşarlar - çaşıb qalar..."

***

Analarını qardaşlar uşaqkən itiriblər, ataları ondan sonra yenidən evlənib. İkinci arvaddan da kişinin bir qızı dünyaya gəlib: "Atalarının təzədən evlənməyi də heç yaddaşlarında iz salmamışdı, necə oldu, necə gəldi, necə öyrəşdilər yad qadına, ayaqqabılarını təmizləməyinə, paltarlarını yumağına, başlarını sığallamağına - xatırlayammır. Bir dəfə xətirlərinə dəymədi, üstlərinə hirslənmədi. Ancaq böyüyəndə fikirləşdi ki, bu elə yadlıq imiş, yad olduğuna görə ərk eləmirmiş, hər şıltaqlıqlarına dözürmüş. Qəribədi, böyüdükcə adam doğmalarda yadlıq axtarır, yadlarda doğmalıq. Bacılarının başına fırlanırdılar, çor deyəndə can deyirdilər, di gəl, elə ki böyüdülər, başladılar burunlamağa, hər sözünün başına ip salmağa, özü də heç nədən, elə bil şeytan qulaqlarına pıçıldayırdı ki, o, ögeydi, o sizi istəmir, yalandan özünü mehriban göstərir. Əvvəllər bunu hiss elətdirəndə bacısı pisikirdi, yazıqlaşırdı, sonra öyrəşdi, hətta yad olmadığına hamını inandırmaq istəyirmiş kimi başladı lap mehribançılıq eləməyə. İndi də hay deyəndə yanlarını kəsdirir, xeyirdə-şərdə əldən-ayaqdan gedir, hələ durub burdan Vitebskə, Vəlinin oğlunun toyuna da yollandı".

Böyük qardaşları Vəli böyük savaşda itkin düşüb, nə yeri-yurdu bilinib, nə meyidi ələ gəlib: "Nə yaşadı, nə gördü, heç bilmədilər qəbri hardadı, bəlkə də heç yoxdu. Vur-tut 18 yaşı vardı, elə yaşına görə də, sir-sifətinə, görüb-götürdüyünə görə də uşaq idi. Ancaq son şəkillərində tam bambaşqadı - bığlı, sərt, hətta bir az zəhmli. Oxuyub rütbə alıbmış, təyyarəçi olubmuş, evlənibmiş, boy-buxunlu, ailə qayğısı çəkən kişiymiş..."

Vəli müharibəyə gedəndən sonra arvadı Lüdmila qucağında bir uşaq onun verdiyi ünvanla gəlib qayınatasıgili tapır, ancaq gəlin yerini isitməmiş ərinin qara xəbəri çıxır. Ondan sonra Lüdmila hələ bir neçə il də qayınatasıgilin yanında qalır, müharibə qurtarandan sonra şələ-küləsini yığıb vətəninə qayıdır. Bizə deyilir ki, həmin illərdə qəhrəmanımız da cəbhədə olub: "Həmin günləri çox daşınıb-düşünmüşdü, çalışmışdı Lüdmilanın gəlişini gözünün qabağına gətirsin, o yolun əziyyətini, Lüdmilanın gəlib çatandan sonrakı peşmançılığını hiss eləsin, bilsin kim haqlıdı, kim haqsızdı, çünki o, müharibədən qayıdanda nə Lüdmila varıydı, nə uşaq, qardaşı isə Vəli üçün tikilmiş evə köçmüşdü, bacısından savayı da heç kimi danışdırmırdı. Üstündən otuz il keçəndən sonra bunu bilməyin heç bir xeyri yoxdu, olan olmuşdu, keçən keçmişdi; başa düşdüyünün bir xeyri olması üçün o gərək otuz il əvvələ qayıdaydı, o vaxta ki, hələ Lüdmilanın, o uşağın yoxluğuna evdəkilər öyrəşməmişdi, o uşağı əzizləyəndə dedikləri hansı sözlərisə yadırğamamışdılar, hələ atası sağ idi, kiçik oğlunun haradasa yaşadığını bilə-bilə ömrü boyu üzünü görməyəcəyindən, xiffətini çəkəcəyindən xəbərsizdi..."

Ataları təkcə öz ailəsinə yox, nəslinə, tayfasına da yiyə durmağı bacaran xarizmatik, dizibərk kişi olub: "Bir vaxt atası Bakıdan Düzyurda köçmüşdü ki, qaçhaqaçda Göyçədən tökülüşüb gəlmiş qohum-əqrəbasını bir yerə yığsın, onlara həyan olsun, ancaq gözü görə-görə öz ailəsi dağıldı, hərə ağzını bir tərəfə tutdu. Bu da sonu..."

***

Qəhrəmanımız bir vaxtlar ailəli olub, günün birində arvadı iki qız uşağını onun üstünə atıb, başqa bir kişiyə qoşulub qaçıb: "Hər şey birdəncə dağıldı, yoxa çıxdı. Fikirləşirsən adi gündü, işdən çıxıb evinə gedirsən, görəcəksən arvad-uşaq səni gözləyir, sən də bir qismət çörəyini yeyib uşaqlarını başına yığacaqsan, deyib güləcəksən. Gəlirsən ki, arvadından başqa hamı evdədi, gözləyirlər şad xəbər versinlər, muştuluqlasınlar..."

Başını itirmiş ortancıl qardaşı - bir cüt qız atasını sərt üzüylə kiçik qardaş ayıldır: "Arvad kimi nə ağlayırsan, ə, nə olub, qaçıb, cəhənnəmə qaçıb, özünü niyə öldürürsən?!"

Bu rüsvayçı hadisə qardaşının əlinə onu utandırıb alçaltmaq üçün, ona nifrətini silaha çevirmək üçün, sonra da onun yaxasını körpə qızların caynağında qoyub ata evinin qapısını təpiklə örtmək üçün yağlı girəvə verir: "Başını götürüb evdən birdəfəlik gedəndə yenə oyun oynadı. Getməyinə düz eləyib gedirdi, hamının dilinə düşən, dalınca şınqroy çalınan adamla bir damın altında niyə də yaşamalıydı ki. Qal, gündə hər ağzıgöyçəkdən bir söz eşidib əsəbləş, üstəlik özünü də sal azara, qardaşının gününə ağla, kömək elə balalarını saxlasın, böyütsün. Düz iş gördü. Ancaq buna görə getdiyini boynuna almağı şəninə sığışdırmadı. O axı qəhrəmanıydı! Gərək qəhrəman kimi də gedəydi, özünücə düşündüyünü, özünə rahatlıq axtardığını pərdələyəydi, özü özünü aldadaydı; guya əziyyətdən qaçmır, onun ucbatından özünü əziyyətə salır, evindən didərgin düşür..."

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Dezinformasiya ilə mübarizədə vahid platforma

Fikir və söz azadlığı hər bir cəmiyyətin inkişafında və demokratik strukturların qurulmasında əsas prinsiplərdən biridir. Bu azadlıq insanlar arasında dialoqun, müzakirələrin və müxtəlif baxışların sərbəst şəkildə ortaya çıxmasına imkan verir. Belə bir azadlığın təşviqi və qorunması, beynəlxalq əməkdaşlıq və qarşılıqlı anlayışın inkişafı baxımından da böyük əhəmiyyət kəsb edir. D-8 ölkələrinin qurduğu Media Forumu isə bu sahədə xüsusi bir rol oynayır.

Bu günlərdə D-8 Media Forumu baş tutub. Forum İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin media sahəsinə məsul qurumlarının və aparıcı media subyektlərinin rəhbərlərinin, digər yüksəkvəzifəli nümayəndələrin və sahə üzrə tanınmış ekspertlərin iştirakı ilə keçirilib. Tədbirdə 8 ölkədən və Təşkilatın Katibliyindən 71 xarici nümayəndə olmaqla, ümumilikdə, 150-yə yaxın qonaq iştirak edib.

## D-8 təşkilatı medianın təsir gücünü artırmalıdır

Tədbirdə çıxış edən D-8 təşkilatının Baş katibi İsiaka Abdulqadir İmam təşkilata üzv ölkələrin əməkdaşlığının təkcə iqtisadiyyatda deyil, həmçinin media və kommunikasiya sahəsində böyük önəm daşıdığını deyib: “Azərbaycan D-8-ə üzv seçilən gündən öz töhfəsini əsirgəməyib, bu təşkilatda qeyri-adi təşəbbüslərlə çıxış edib. Keçən ay keçirilən D-8 Yüksəksəviyyəli İqlim və Şəhərsalma Dialoqunda yol xəritəsi müəyyən olunub”.

O, Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edərək, ölkəmizə artıq dəfələrlə səfərə gəldiyini və özünü evindəki kimi hiss etdiyini bildirib: “Azərbaycanın bu mötəbər təşkilata qoşulmasından sonra canlanmalar hiss olunur. D-8 Media Forumunun Bakı şəhərində ilk dəfə olaraq keçirilməsindən çox məmnunuq”.

Baş katibin sözlərinə görə D-8 təşkilatı öz mövqeyini, həmçinin medianın nüfuzunu və təsir gücünü artırmalıdır: “Təşkilatımızın tutduğu mövqeyi beynəlxalq səviyyəyə çatdırmalıyıq. Planlarımızda ümumi yayım assosiasiyasını yaratmaq var. Həmçinin təşkilata üzv ölkələrdə jurnalistika məktəblərinin yaradılmasını və təqaüdlərin ayrılmasını təklif etmək istərdik. Bu tədbirin hər il keçirilməsi medianın inkişaf etdirilməsinə kömək ola bilər. D-8 ölkələrinin birgə əməkdaşlıq edərək fərqlənmə mərkəzi ərsəyə gətirmələri üçün vəsait ayrılmasını təklif edirik”.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

## Məlumatın səhv təqdim olunması ictimai rəyin dəyişməsinə səbəb ola bilər

Pakistanın federal informasiya və yayım naziri Attaullah Tarar bildirib ki, Azərbaycan D-8-in tamhüquqlu üzvü olduqdan sonra bu təşkilata verdiyi dəstəyi dəfələrlə nümayiş etdirib: “Çünki təşkilatın inkişafı üçün irəli sürülən təşəbbüsləri doğru istiqamətdə həyata keçirmək mühüm əhəmiyyət kəsb edir və artıq bunun üçün vaxt yetişib. Bu prosesdə əməkdaşlıq əsas amillərdən biridir.

Nazir qeyd edib ki, qlobal informasiya məkanında qeyri-adi transformasiyalar baş verir: “Geosiyasi vəziyyətdə yaşanan son hadisələr bu dəyişikliklərə ciddi təsir göstərir. Yeni texnologiyalar ictimai inam və etibarın artırılmasına xidmət etməlidir. Rəqəmsal media ekosistemləri son dövrlərdə xüsusilə önəm qazanıb. Artıq ənənəvi çap mediasından rəqəmsal mediaya keçid sürətlə baş verir və bu sahə dinamik şəkildə inkişaf edir. “Gənc əhalinin maarifləndirilməsi xüsusi önəm daşıyır. Onlara sosial media və rəqəmsal platformalardan düzgün, müsbət və təhlükəsiz şəkildə istifadə yolları izah edilməlidir. Məlumatın səhv təqdim olunması isə ictimai rəyin dəyişməsinə səbəb ola bilər. Buna görə də dövlət qurumlarının informasiya siyasəti ardıcıl və şəffaf olmalı, verilən məlumatlar vaxtında və dəqiq şəkildə əhaliyə çatdırılmalıdır”.

Nazir dezinformasiyanın düzgün aşkarlanması üçün insanların maarifləndirilməsinin vacib olduğunu deyib. O, vurğulayıb ki, bu baxımdan D-8 forumu çox əhəmiyyətli təşəbbüsdür: “Təklif edirəm ki, D-8 Təşkilatına üzv dövlətlərin media peşəkarları və media nazirlikləri arasında işçi qrupu yaradılsın. Bu qrup mütəmadi görüşlər keçirərək fikir mübadiləsi aparsın. Həmçinin media mühitində dezinformasiyanın qarşısını almaq məqsədilə D-8 üzv dövlətləri üçün vahid bir platformanın yaradılmasını təklif edirəm”.

## Etibarlı informasiya məkanının qurulması üçün...

İran İslam Respublikası Xarici İşlər Nazirliyinin xarici media üzrə baş direktoru və sözçünün müavini Alireza Miryusefi Aval bildirib ki, D-8 təşkilatı, ilk növbədə, iqtisadi əməkdaşlığı təşviq etmək məqsədilə yaradılıb: “Lakin bu gün biz hamımız yaxşı anlayırıq ki, üzərimizdə yalnız iqtisadi sahə ilə məhdudlaşmayan, daha geniş ölçülü məsuliyyət mövcuddur. Bu məsuliyyət, ilk növbədə, informasiya məkanında aydınlıq, şəffaflıq və etibarlılığın təmin edilməsindən ibarətdir. Bu isə hər bir ölkənin ictimai rifahına, regional sabitliyə və qlobal təhlükəsizliyə xidmət edən strateji hədəfdir”.

O qeyd edib ki, xüsusilə siyasi gərginliyin mövcud olduğu ölkələrdə düzgün informasiya cəmiyyətin mövqeyini formalaşdıran əsas amillərdən biridir. Yanlış və ya manipulyativ məlumat isə ictimai rəyin dəyişdirilməsi, sosial sabitliyin pozulması kimi riskləri özündə ehtiva edir: “Bu baxımdan mən hesab edirəm ki, D-8 təşkilatına üzv ölkələrin əməkdaşlıq çərçivəsində xəbər bürolarının yaradılması zəruri və təxirəsalınmaz addımdır. Belə bürolar qarşılıqlı informasiya axınının gücləndirilməsinə, media əməkdaşlığının genişləndirilməsinə və ictimaiyyətə operativ, etibarlı məlumatın çatdırılmasına xidmət edəcək. Bu, həm də dezinformasiyaya qarşı mübarizədə mühüm vasitə olacaq”.

***Yeganə***

# İnformasiyanın həyatımızdakı rolu

İnformasiya yalnız mətn və sözlərdən ibarət deyil. O, bütün təcrübəmizi, əlaqələrimizi, elm və texnologiya sahələrini formalaşdıran bir resursdur. 21-ci əsr informasiyanın gücünü daha aydın şəkildə göstərir. Hər gün qarşılaşdığımız məlumatlar, həyatımıza istiqamət verən qərarları müəyyənləşdirir, yeni imkanlar yaradır.

Sivilizasiyanın inkişafında da informasiyanın rolu əvəzedilməzdir. İnformasiya cəmiyyəti müasirliyə aparan yoldur. Bu baxımdan bəşər tarixində informasiya həmişə mühüm əhəmiyyət kəsb edib.

## 31 il öncə...

Təsadüfi deyil ki, 1994-cü ildən 26 noyabr - Dünya İnformasiya Günü kimi qeyd olunur. 1992-ci il noyabrın 26-da Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının təşəbbüsü ilə I Beynəlxalq İnformasiyalaşdırma Forumu keçirilib. Forumun işində dünyanın 29 ölkəsindən 10 mindən artıq alim və mütəxəssis iştirak edib. Tədbirdə ənənəvi olaraq hər il noyabrın 26-da Dünya İnformasiya Gününün qeyd olunmasına dair qərar qəbul olunub. Beləliklə, bu əlamətdar gün rəsmi olaraq 1994-cü ildə UNESCO tərəfindən qeydiyyata alınıb. Bu gün İKT sahəsində çalışanların peşə bayramıdır.

## İnformasiya azadlığı demokratiyanın göstəricisidir

Dünya İnformasiya Günündə ən çox diqqətdə olan məsələlərdən biri fikir və söz azadlığıdır. Təsadüfi deyil ki, söz və informasiya azadlığı hər bir ölkənin inkişafı üçün vacib olan məsələlərdən biridir. Belə ki, söz və informasiya azadlığı ümumilikdə demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması üçün əsas zəminlərdən sayılır.

İnformasiya azadlığı, jurnalistlərə ifadə azadlığının verilməsi demokratik cəmiyyətlərin əsas göstəricilərindən və beynəlxalq hüququn daim izlədiyi məsələlərdən biridir. Lakin dünya mürəkkəbləşdikcə, beynəlxalq müstəvidə siyasi və iqtisadi maraqların toqquşması artdıqca medianın müstəqilliyi bəzən arxa plana keçir.




## İnformasiya təhlükəsizliyi etikası

Dünya İnformasiya Gününün qeyd olunmasının digər bir məqsədi informasiya mübadiləsinin təhlükəsizliyini və etik standartlarını vurğulamaqdır. Bu günün tələbləri yalnız məlumatın sürətli ötürülməsi ilə məhdudlaşmır, həm də bu məlumatların düzgünlüyü, etibarlılığı və mənbələrin gizliliyi məsələləri ilə əlaqədardır. İnternetin inkişafı ilə yanaşı, məlumatların oğurlanması, saxta xəbərlər, şəbəkə hücumları və fərdi məlumatların sızması kimi problemlər də meydana çıxıb. Buna görə də, informasiya təhlükəsizliyi və etikasına diqqət yetirmək, xüsusilə, rəqəmsal dünyada yaşayan insanlar üçün əsas məsələdir.

## Azərbaycanda bu məqamlara diqqət olunur...

Sevindirici haldır ki, ölkəmizdə informasiya azadlığına xüsusi diqqət olunur. Belə ki, söz və media azadlığı Azərbaycanda da demokratik cəmiyyətin prioritet dəyərlərindən biri olaraq qəbul edilir. İnformasiya və söz azadlığı fərdin öz əqidə və mülahizələrini sərbəst formalaşdırmaq, onlara riayət etmək, onlardan sərbəst imtina etmək hüququnu, öz fikir və əqidəsini sərbəst ifadə etmək, şifahi ünsiyyət hüququnu nəzərdə tutur. Söz azadlığı KİV-in fəaliyyəti ilə sıx bağlıdır. Eyni zamanda, istənilən qanuni yolla informasiyanı sərbəst axtarmaq, almaq, ötürmək, istehsal etmək və yaymaq hüququnun həyata keçirilməsi üçün zəruri zəmin yaradır. Azərbaycanda da məhz bu fundamental məqamlara xüsusi diqqət olunur.

***Yeganə BAYRAMOVA***

# Bakıda ilk dəfə

**İƏT-in Mədəniyyət Festivalı keçiriləcək**

Gələn həftə Bakıda “İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə - 2025” keçiriləcək.

“Report” xəbər verir ki, bu barədə Mədəniyyət Nazirliyi məlumat yayıb.

Qeyd olunub ki, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və nazirliyin təşkilatçılığı ilə baş tutacaq tədbirin 5-11 dekabrda keçirilməsi nəzərdə tutulub.

Belə ki, Azərbaycanın ilk dəfə ev sahibliyi edəcəyi tədbir ölkənin beynəlxalq mədəniyyət platformasında artan rolunu və regionda multikulturalizm, dialoq və əməkdaşlıq ənənələrinin təşviqinə verdiyi töhfəni bir daha nümayiş etdirəcək.

Festivalda mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, İslam dəyərlərinin - tolerantlıq, sülh və müxtəlifliyə hörmətin təbliği əsas istiqamətlərdən olacaq.

Bununla yanaşı, iqtisadiyyat, təhsil, elm və turizm sahələrində birgə layihələrin təşviqi, üzv dövlətlər arasında dayanıqlı tərəfdaşlıqların qurulması və yaradıcı sənayelərin qlobal iqtisadiyyata inteqrasiyasının gücləndirilməsi nəzərdə tutulur.

Tədbirdə 50-dən çox ölkədən 300-dən artıq qonağın - dövlət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri, eləcə də yaradıcı sənaye üzrə mütəxəssislərin iştirakı gözlənilir.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4997**
**Sifariş: 2402**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova